Xalqın qəzeti!

# Xalq qəzeti

№ 268 (30384) 8 dekabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Sülhə doğru ümidverici addım

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının birgə açıqlaması



**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı birgə açıqlama yayıb.**

XQ açıqlamanı təqdim edir: "Azərbaycan Respublikası və Ermənistan Respublikası regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşür. İki ölkə münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bir daha təsdiq edir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqlar nəticəsində iki ölkə arasında etimad quruculuğu istiqamətində ciddi addımların atılmasına dair razılıq əldə olunub.

Humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, Azərbaycan Respublikası 32 erməni hərbçini azad edir.

Ermənistan Respublikası, öz növbəsində, humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, 2 azərbaycanlı hərbçini azad edir.

Xoş niyyətin təzahürü olaraq, Ermənistan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycan Respublikasının namizədliyini dəstəkləyir. Azərbaycan Respublikası və Ermənistan Respublikası ümid edirlər ki, Şərqi Avropa Qrupuna daxil olan digər ölkələr də Azərbaycanın namizədliyini dəstəkləyəcək. Xoş niyyətin təzahürü olaraq, Azərbaycan Respublikası Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini dəstəkləyir.

Azərbaycan Respublikası və Ermənistan Respublikası yaxın gələcəkdə əlavə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün müzakirələri davam etdirəcəklər və beynəlxalq ictimaiyyəti iki ölkənin qarşılıqlı etimadın yaradılmasına töhfə verəcək, bütün Cənubi Qafqaz regionuna müsbət təsir göstərəcək səylərini dəstəkləməyə çağırırlar".

***

### Azərbaycan ilə Ermənistan arasında hərbçilərin qarşılıqlı surətdə azad edilməsi barədə razılıq əldə olunub

***Siyahıya Azərbaycan xalqına qarşı müharibə cinayətləri və bəşəriyyət əleyhinə cinayətlər törətmiş qondarma rejimin rəhbərləri daxil deyil.***

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqlar nəticəsində humanizm prinsipinə sadiqlik ruhunda, xoş niyyət göstəricisi olaraq iki ölkə arasında qarşılıqlı etimad tədbiri kimi Azərbaycan tərəfindən ermənıəsilli 32 şəxsin, Ermənistan tərəfindən isə 2 Azərbaycan hərbçisinin azad edilməsi barədə razılıq əldə edilib.

Ermənistana qaytarılması nəzərdə tutulan 32 nəfər (26 nəfər 2020-ci ilin dekabrında Hadrut istiqamətində keçirilmiş antiterror tədbirləri zamanı həbs edilmiş şəxslər, qalan 6 nəfər müxtəlif vaxtlarda sərhəddə saxlanılmış şəxslər) artıq cəzalarının böyük hissəsini çəkiblər.

Otuz iki nəfərlik siyahıya Azərbaycan xalqına qarşı müharibə cinayətləri və bəşəriyyət əleyhinə cinayətlər törətmiş qondarma rejimin rəhbərləri Araik Arutunyan, Bako Saakyan, Arkadi Qukasyan, Ruben Vardanyan, o cümlədən, Vaqif Xaçaturyan, Alyoşa Xosrovyan kimi şəxslər daxil deyil və ola da bilməz.

Bu addım Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan insanına, ölkə vətəndaşlarına, hərbçilərə verdiyi dəyərin, əsirlikdə olan şəxslərin yaxınlarının hisslərinə şərik olmasının bariz nümunəsidir. Prezident İlham Əliyev bir daha sübut etdi ki, o, hər bir azərbaycanlının Prezidentidir.

Xüsusilə vurğulanmalıdır ki, bu razılaşma Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqlar nəticəsində əldə olunub və heç bir üçüncü ölkə tərəfindən vasitəçilik edilməyib. Bu, bir daha göstərir ki, Azərbaycan və Ermənistan vasitəçilər olmadan sülh prosesini irəli apara bilərlər.

# Qayıdışın Füzuli köçü davam edir

**Növbəti köç karvanı ilə dünən yenidən qurulan Füzuli şəhərinə yola düşən 25 ailə olmaqla 80 nəfər keçmiş məcburi köçkün doğma yurduna qovuşub.**



Ailələr qarşılandıqdan sonra açarların təqdim edilməsi mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin departament direktoru Natiq Hüseynov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov və digər şəxslər iştirak ediblər.

Mərasimdə sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Sonda keçmiş məcburi köçkünlər sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq öz evlərində yerləşiblər. Xatırladaq ki, Füzuli şəhərinə qayıdış 2023-cü il avqust ayının 18-də başlanılıb. Ötən müddətdə şəhərdə 333 ailə olmaqla 1186 nəfərin daimi məskunlaşması təmin edilib.

Prezident İlham Əliyev bu il oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə şəhərə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərək Füzulinin indi tamamilə yenidən qurulduğunu, yaşayış məhəlləsinin salındığını, bir neçə önəmli obyektin təməlinin qoyulduğunu, burada yaşayanların sayının da təbii ki, getdikcə artacağını bildirib. Dövlət başçısı, eyni zamanda, ilin sonuna qədər Füzulidə, təqribən, 2 minə yaxın insanın yaşayacağı, Böyük Qayıdış Proqramının birinci mərhələsinin yekununda – 2026-cı ilin sonunda isə 22 min insanın bu şəhərdə məskunlaşacağının nəzərdə tutulduğunu vurğulayıb.

Bütün bunlar barədə əməkdaşlarımızın hazırladıqları irihəcmli yazılar qəzetimizin növbəti sayından etibarən oxucularımıza təqdim ediləcək.

***XQ***



# Böyük Britaniya Azərbaycanda ən böyük investordur

**Dünən Bakıda Azərbaycan və Böyük Britaniya arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclası keçirilib. Azərbaycanın energetika naziri, komissiyanın Azərbaycan tərəfindən həmsədri Pərviz Şahbazov və Böyük Britaniyanın ixrac məsələləri üzrə dövlət naziri, komissiyanın Britaniya tərəfindən həmsədri Lord Malcolm Offordun sədrliyi ilə keçirilən iclasda iki ölkənin müvafiq dövlət strukturlarının səlahiyyətli nümayəndələri iştirak ediblər.**

Tədbiri Energetika naziri Pərviz Şahbazov açaraq iclasda aparılacaq müzakirələrin iki ölkənin maraqları baxımından yeni imkanlar açacağını bildirib. Nazir Azərbaycanla Birləşmiş Krallığı ənənəvi dostluq və sıx əməkdaşlıq münasibətlərinin birləşdirdiyini, dövlətlərarası əlaqələrin, iqtisadi-ticari, enerji, siyasi, sosial və humanitar sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın hazırkı yüksək səviyyəsi və gündən-günə yeni məzmunla zənginləşməsinin xüsusi məmnunluq doğurduğunu bildirib. Qarşılıqlı rəsmi səfərlər və görüşlərin əməkdaşlığın möhkəmləndirilməsində mühüm rol oynadığı, imzalanmış ikitərəfli sənədlərin əlaqələrimizin mütərəqqi inkişafı üçün əlverişli siyasi-hüquqi zəmin yaratdığı qeyd edilib.

*(ardı 7-ci səhifədə)*

# Naxçıvana yol haqqı və Ermənistanı "təcrid qatarı"

Səhifə ⇨ 3

# Ağ Evin qərarı: Qafqazda Azərbaycanla irəli!



**Məlum səbəblərdən bir qədər soyumuş Azərbaycan–ABŞ münasibətlərinin artıq istiləşməyə doğru getməsinin konturları görünür. Əlbəttə, bu, yaxşı haldır. Axı, iki ölkə arasında diplomatik münasibətlər Azərbaycan XX əsrin axırlarında dövlət müstəqilliyini bərpa edəndən az sonra, 1992-ci ilin fevralında qurulub və bir çox mühüm sahələri əhatə edir.**

Hər iki tərəfə yalnız siyasi və iqtisadi dividendlər gətirən, etibarlı əməkdaşlığa söykənən münasibətlərdə ara-sıra anlaşılmazlıqlar yaransa da, problem Azərbaycanın ədalətli mövqeyi və ABŞ-ın Cənubi Qafqazda maraqlarını Bakısız yürüdə bilməyəcəyi qənaətinə gəlməsi ilə öz həllini tapıb. Bu dəfə də eyni hal yaşanır. Göründüyü kimi, Azərbaycan rəhbərliyinin siyasi iradəsi və qətiyyəti ermənipərəst konqresmenlərin bütün planlarını alt-üst etdi. Son bir ayın acı təcrübəsi onu göstərdi ki, Ağ Evə üzqarası gətirəcək siyasi səhvləri yenə də Dövlət katibi Antoni Blinken düzəltməli olacaq.

*(ardı 4-cü səhifədə)*



# Ərdoğanın ümidverici Yunanıstan görüşləri

Səhifə ⇨ 11

# Güney Azərbaycanın istiqlal salnaməsi

Səhifə ⇨ 9

# Ölkəmiz qlobal ərzaq təhlükəsizliyi sistemində

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında Azərbaycanın BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı müzakirə apardığını bildirib. O, bu təşkilatın respublikamızdakı nümayəndəsi Muhammad Nasar Hayat ilə keçirdiyi görüşdə BMT-nin ölkəmizlə bir çox sahələrdə səmərəli əməkdaşlığının mövcud olduğunu, FAO ilə Azərbaycan arasında tərəfdaşlığın potensial formatının yaradıldığını, ərzaq təhlükəsizliyinin təmin edilməsinin və aqrar sahədə innovativ mexanizmlərin tətbiqi barədə danışdığını qeyd edib.**

*(ardı 7-ci səhifədə)*



# Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında

## Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq **qərara alıram:**

**1.** Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.

**2.** Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 dekabr 2023-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1031; 2023, № 8 (I kitab), maddə 1167) ilə təsdiq edilmiş "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"nin 5.1-ci bəndində "5 642 390 (beş milyon altı yüz qırx iki min üç yüz doxsan)" sözləri "245 157 852,36 (iki yüz qırx beş milyon yüz əlli yeddi min səkkiz yüz əlli iki manat otuz altı qəpik)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 dekabr 2023-cü il**

# Baş nazir Böyük Britaniyanın Dövlət katibinin müavini ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 7-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Dövlət katibinin parlament üzrə müavini, Biznes və Ticarət Departamentində ixracat naziri Lord Offordla görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, görüşdə Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi qeyd olunub.

Dövlətlərarası münasibətlərin gündəliyinin çox geniş olduğu bildirilərək iqtisadi-ticari əməkdaşlığın dinamikasından məmnunluq ifadə edildi.

Bildirildi ki, 2022-ci ildə ticarət dövriyyəsinin həcmi 55 faizdən çox artaraq bir milyard ABŞ dollarını üstələyib.

Bununla yanaşı, ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi üçün yaxşı imkanların mövcud olduğu diqqətə çatdırılıb. İqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Bakıda keçirilən 6-cı iclasının bu istiqamətdə birgə atılan səylərə töhfə verəcəyinə əminlik ifadə olunub.

Böyük Britaniyanın 35 milyard ABŞ dollarına yaxın sərmayə yatırımı ilə Azərbaycanda ən böyük xarici investor olduğu bildirilib.

İki ölkə arasında enerji sahəsində əməkdaşlığın yüksək səviyyəsi təqdir edilib, bu baxımdan BP şirkəti ilə uzun illər səmərəli və qarşılıqlı etimada əsaslanan tərəfdaşlığın əhəmiyyəti xüsusi vurğulanıb.

Cənub Qaz Dəhlizi kimi enerji təhlükəsizliyi layihələri uğurlu enerji əməkdaşlığının nümunəsi kimi dəyərləndirilib.

Azərbaycanın 2027-ci ilə qədər Avropaya qaz təchizatının iki dəfə artırılması planları barədə məlumat verilib. Bu istiqamətdə BP şirkəti ilə əməkdaşlığın davam edəcəyinə ümidvarlıq ifadə olunub.

Eyni zamanda, iki ölkə arasında bərpaolunan enerji sahəsində əməkdaşlığın gündəliyində duran məsələlər müzakirə edilib. BP ilə Cəbrayılda həyata keçiriləcək 240 MVt gücündə günəş enerjisi layihəsinin ölkəmizin "yaşıl" enerjiyə keçid istiqamətində səylərinə mühüm töhfə verəcəyi bildirilib.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa və quruculuq işləri barədə məlumat verilib.

Hazırda həmin ərazilərdə həyata keçirilən layihələrə, xüsusilə minatəmizləmə işlərinə bir neçə Böyük Britaniya şirkətinin cəlb olunduğu bildirilib.

Tərəflər nəqliyyat sahəsində əməkdaşlığın perspektivlərini nəzərdən keçiriblər. Azərbaycanın Avrasiyanın aparıcı nəqliyyat-tranzit qovşağına çevrildiyi bildirilib. Son vaxtlar Orta Dəhlizin artan aktuallığına diqqət çəkilərək bu beynəlxalq nəqliyyat marşrutunun Böyük Britaniya hökuməti tərəfindən də maraqla izlənməsi və dəstəklənməsi təqdir edilib.

Tərəflər, həmçinin humanitar əməkdaşlığı nəzərdən keçiriblər, təhsil sahəsini bu kontekstdə vacib istiqamət kimi dəyərləndiriblər.

Görüş zamanı iki ölkə arasında qarşılıqlı maraq doğuran müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Koreya nümayəndə heyəti Milli Məclisdə



**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova Koreya Respublikası Milli Assambleyasının Gender bərabərliyi və ailə komitəsinin sədri İn-suk Kvonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Söhbət zamanı ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb.**

Görüşdə Azərbaycanla Koreya arasındakı münasibətlərin mövcud vəziyyətinin məmnunluq doğurduğu qeyd olunub. Bununla yanaşı, ölkələrimiz arasında fəal siyasi dialoq və sıx iqtisadi əməkdaşlıq münasibətlərinin çoxsaylı istiqamətlər üzrə əlaqələrin inkişafına geniş perspektivlər yaratdığı diqqətə çatdırılıb. İki ölkə arasında münasibətlərin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlər, xüsusilə dövlət başçılarının səfərləri qarşılıqlı əməkdaşlığın daha da genişlənməsi üçün möhkəm zəmin yaradıb.

Bu ilin noyabrında Koreya Respublikasına rəsmi səfərini xatırladan S.Qafarova, orada keçirilən görüşlərdən məmnunluğunu bildirib. O, görüşlərdə parlamentlərimizin müvafiq komitələri arasında əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparıldığını xatırladıb.

Görüşdə, həmçinin hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının münasibətlərin inkişafında xüsusi rol oynadığı vurğulanıb. Söhbət zamanı tərəflər gender məsələlərinə dair də fikir mübadiləsi aparıblar. Paralmentin rəhbəri Azərbaycanda qadın hüquqlarının təmin olunmasının, qadınların cəmiyyətdə və dövlət idarəçiliyində rolunun artırılmasının daim diqqət mərkəzində olduğunu diqqətə çatdırıb. O, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, eləcə də Milli Məclisdə Ailə, qadın və uşaq məsələləri komitəsinin yaradılmasının bu sahədə hökumət-parlament əməkdaşlığının təmin edilməsi istiqamətində atılmış mühüm addım olduğunu bildirib.

İn-suk Kvon da Azərbaycanda olduğu kimi, Koreyada da gender məsələlərinə, qadın hüquqlarının qorunmasına və qadınların ictimai həyatda fəallıqlarının artırılmasına böyük əhəmiyyət verildiyini vurğulayıb.

Azərbaycana səfərindən məmnunluğunu bildirən komitə sədri, ümidvar olduğunu bildirib ki, belə səfərlərin intensivliyi daha da artacaq. Ölkələrimiz və xalqlarımız arasında oxşar cəhətlərin çox olduğunu söyləyən İn-suk Kvon münasibətlərimizin inkişafı üçün böyük potensialın mövcudluğunu qeyd edib. O, enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın vacib rolunu diqqətə çatdırıb.

Görüşdə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Koreya Respublikası Milli Assambleyasının üzvü, Gender bərabərliyi və ailə komitəsi sədrinin müavini, Koreya–Azərbaycan parlamentlərarası dostluq qrupunun vitse-prezidenti Şin Hyun-yonq və digər rəsmi şəxslər iştirak ediblər.

***Ə.BƏDƏLOV***
***XQ***

# Hərbi Prokurorluqda Ulu öndərlə bağlı tədbir



**Dekabrın 7-də Hərbi Prokurorluqda ümummilli lider Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib.**

Baş prokurorun müavini – Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev ulu öndər Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən, demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən ətraflı danışıb.

Sonra Milli Məclisin deputatları Cavanşir Feyziyev, Arzu Nağıyev, İqbal Məmmədov, Vüqar İsgəndərov və Jalə Əhmədova xüsusi məruzələrlə çıxış ediblər. Xalq şairi Vahid Əziz Ulu öndərlə bağlı xatirələrini bölüşüb.

***XQ***

# Nazir Qubada vətəndaşları dinləyib, sıra baxışı keçirib



**Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov dekabrın 6-da və 7-də Quba Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından qəbula gələn 93 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Otuz yeddi Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 133 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***

# Müdafiə Nazirliyində

## Türkiyə–Azərbaycan hərbi təhsil əlaqələri

***Bakıda keçirilən 15-ci Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahının 2-ci rəisi ordu generalı İrfan Özsert rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini ziyarət edib.***

Türkiyəli nümayəndə heyəti ilə görüşən Milli Müdafiə Universitetinin rektoru, professor, general-leytenant Heydər Piriyev qonaqları ölkəmizdə görməkdən məmnunluğunu bildirib. Görüşdə hər iki qardaş ölkə arasında hərbi təhsil sahəsində görülən işlərdən və perspektiv planlardan danışılıb.

## İran HDQ-nin nümayəndə heyəti Ali Hərbi Məktəbdə

***Ölkəmizdə səfərdə olan İran Ordusunun Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Şəhram İraninin rəhbərlik etdiyi nümayəndə heyəti Heydər Əliyev adına Ali Hərbi Məktəbi və Azərbaycan HDQ-nin "N" saylı hərbi hissəsini ziyarət edib.***

Qonaqlara Ali Hərbi Məktəbin yaranma tarixi və fəaliyyəti ilə bağlı məlumat verilib.

***XQ***



# Voskanyan 18 il həbs cəzası aldı

**Kəlbəcər istiqamətində tutulmuş erməni diversant Voskanyan Qaqik Aşotinin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Sabunçu rayon Məhkəməsinin inzibati binasında Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi Abdulla Məmmədovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, təqsirləndirilən şəxs 18 il müddətinə azadlıqdan məhrum edilib.

O, cəzasının ilk 5 ilini qapalı, qalanını isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməlidir.

***XQ***



# Naxçıvana yol haqqı və Ermənistanı "təcrid qatarı"

## Prezident İlham Əliyev İrəvana və havadarlarına mesajlar verdi

**Azərbaycan Prezidenti İlham Əliyevin dekabrın 6-da ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilmiş "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumundakı çıxışının diqqətçəkən məqamlarından biri onun Naxçıvana yol müstəvisində söylədikləri idi. Dövlətimizin başçısı məsələnin prinsipial əhəmiyyətini son dərəcə dolğun şəkildə vurğuladı.**




Bəli, Prezident İlham Əliyev Naxçıvana yola Azərbaycanın ən yaxın pesrpektiv vəzifəsi, strateji hədəfi baxımından yüksək dəyər qazandırdı. Ölkəmizin lideri dünya ictimaiyyətinə, o cümlədən, Ermənistana dərin məzmunlu mesaj verdi. Dövlətimizin başçısı Naxçıvana yolun Azərbaycanın legitim hüququ olduğunu açıqladı və əminlik yaratdı. Bu əminlik həm İrəvanın, həm də onun xaricdəki havadarlarının irəli sürdüyü baxışları tamamilə inkar və alt-üst edən yanaşmadır. Məsələ barədə təfərrüatlara varmazdan əvvəl qısa şəkildə tarixə nəzər salaq.

***

Məlum olduğu kimi, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulanda Naxçıvana yol problemi olmayıb. Çünki o zaman həmin ərazi respublikamızın suveren torpağı idi. Lakin AXC-nin süququ, Sovet Rusiyasının dövlətimizi işğal etməsi və sonradan SSRİ-nin formalaşması ilə vəziyyət dəyişdi. Azərbaycana ərazi iddialarını irəli sürməkdə olan erməni millətçilərinə 1918-ci ildə paytaxt İrəvan olmaqla torpaqlarımız hesabına Ermənistan Respublikasının yaradılması azlıq elədi. Onlar yeni iddialara düşdülər. Həm Naxçıvana gedən yolu öz əllərinə keçirməyə, həm də Qarabağın dağlıq hissəsini Azərbaycandan qoparmağa girişdilər. Təəssüf ki, birinci istəklərinə nail oldular. Nail oldular deyəndə ki, bunu sovet liderlərinin saxta, o zaman da, elə indi də heç bir hüquqi və mənəvi əsası olmayan sənədləri təsdiqlədi. Məsələ o qədər saxta mahiyyət daşıdı ki, ərazini Ermənistana peşkəş edən sovet başbilənləri öz əməllərinin ciddi xarakter alması üçün heç nə etmədilər. Nəticədə 1975-ci ilin sovet dövrü xəritələri tərtib edilənədək, Naxçıvana yol Ermənistan ərazisi olaraq göstərilmədi. Yəqin, indi fərqinə vardınız ki, baş nazir Nikol Paşinyan administrasiyası nə üçün sərhədlərin dəqiqləşməsində məhz 1975-ci ildən sonrakı xəritələri əsas götürməyin tərəfdarıdır. Axı, onadək istinad ediləsi heç nə yoxdur.

Bəli, N.Paşinyan və komandası yaxşı bilirlər ki, Naxçıvana yol Azərbaycanın haqqıdır. Yeri gəlmişkən, erməni baş nazir bu haqqı bir dəfə tanıyıb da. Söhbət onun 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata imza atmasından gedir. O bəyanata ki, onun doqquzuncu bəndi birbaşa haqqında söz açdığımız məsələyə həsr olunub. Konkret desək, sənəddə Ermənistanın Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolun açılmasına təminat verməli, eyni zamanda, yolda təhlükəsizliyi Rusiya Federal Təhlükəsizlik Xidmətinin qorumalı olduğu aydın şəkildə əksini tapıb.

Əlbəttə, N.Paşinyan hazırda məsələni danır. Bir müddət əvvəl, hətta, xəbərlər yayıldı ki, guya, erməni iqtidarı üçtərəfli Bəyanatın doqquzuncu bəndini ləğv edib. Hər halda, bunun mümkünsüzlüyünü təxmin etmək o qədər də çətin deyil... Ancaq Ermənistanın Naxçıvana yolu açmamaq üçün çeşidli manipulyasiyalara baş vurduğunu görmək çox asandır. Ölkə rəhbərliyi əvvəllər bu yolun "Zəngəzur dəhlizi" məntiqinə qarşı çıxır və məsələni Ermənistanın ərazi bütövlüyünə qəsd kontekstində dəyərləndirir, vay-şivən qoparırdı. Onu da deməliyik ki, belə yanaşmaya dəstək İrandan da gəlirdi. Bakı–Tehran münasibətlərindəki gərginlik özünü həm də "Zəngəzur dəhlizi" müstəvisində göstərirdi. İran Ermənistanın ərazi bütövlüyünün toxunulmazlığının özü üçün "qırmızı xətt" olması məntiqini qabardırdı.

***

İndi İrəvana Tehrandan dəstək yoxdur. Buna görə Paşinyan özünün "Dünya kəsişməsi" layihəsi ilə manipulyasiya etməkdədir. Bu layihə Ermənistanı Fars köfəzi ilə Qara dənizi, Türkiyə ilə Xəzər dənizini və Asiyanı birləşdirən yolların qovşağına çevirir. Əlbəttə, məsələnin reallaşması İrəvan üçün böyük dividend deməkdir və Paşinyan bu dividendin labüdlüyünü Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı prinsipi ilə izah etməkdədir. Məhz belə yanaşması onun üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən yayınmasıdır. Söhbət Ermənistanın 44 günlük müharibədəki məğlubiyyətini təsdiqləyən bəyanatdan gedir. Yəni, bu sənəd həm də İrəvanın kapitulyasiya aktıdır, onun otuz ilə yaxın müddətdə Azərbaycan torpaqlarını işğalda saxlamasının, beləliklə ölkəmizə vurduğu böyük ziyanın cəzasıdır. Digər cəzalar çəkildi. Qarabağda Azərbaycanın tam suverenliyi bərpa olundu. Bu cəza da çəkilməlidir və məhz buna görə Azərbaycan Prezidenti bildirir ki, Naxçıvana yol Azərbaycanın legitim hüququdur.

***

Cənab İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumundakı çıxışında Ermənistanın və havadarlarının məsələdən yayınmaq, ölkəmizə Naxçıvana çıxışı verməmək üçün etdiyi cəhdləri, habelə mövcud istiqamətdəki digər yolverilməz meyilləri də vurğulayıb. "Onlar istəyirlər ki, bizə bu çıxış verilməsin, onun qarşısı alınsın. Onlar gördülər ki, biz bunu etmirik, başladılar şikayətlə çıxış etməyə. Beləliklə, biz Dövlət Departamentinin rəsmisindən müəmmalı bəyanat eşitdik. Birləşmiş Ştatlar qeyd etdi ki, əgər bu, Ermənistandan keçməsə, onlar buna imkan verməyəcəklər. Biz də öz-özümüzə sual veririk, bu nə deməkdir? Çünki biz bunu Ermənistana 3 il idi ki, söyləyirdik. Əgər istəyirsinizsə ki, bu, Ermənistan ərazisindən keçsin, onda bunu erməni dostlarınıza deyin. Siz İranla münasibətlərimizə necə müdaxilə edə bilərsiniz? Yəni, onlar deyirlər ki, biz buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Bu, necə ola bilər? Belə məsuliyyətsiz bəyanatlar bu və ya digər tərəfə yaxşı töhfə vermir. Əfsuslar olsun ki, bu, əslində, sabitliyi, regiondakı proqnozlaşdırmanı daha da çətinləşdirir, o cümlədən bağlantı layihələrinə də təsir göstərir".

Dövlətimizin başçısının haqqında söz açdığı xüsus üzərində bir qədər ətraflı dayanaq. Məlum olduğu kimi, ABŞ Dövlət Departamenti rəhbərinin köməkçisi Ceyms O'Brayn bir müddət əvvəl Birləşmiş Ştatlar Konqresinin Nümayəndələr Palatasında keçirilmiş Qarabağ dinləmələrində Bakı və İrəvan arasındakı sülh prosesinə toxunmuş və olduqca amiranə tərzdə bildirmişdi ki, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yol Ermənistan ərazisindən keçməlidir. Məlum olduğu kimi, Azərbaycan Paşinyan hakimiyyətinin öhdəliklərini yerinə yetirməkdən imtinası, yəni Bakının "Zəngəzur dəhlizi" ideyasına qarşı beynəlxalq səviyyədə apardığı kampaniyanın mövcudluğu şəraitində yolun İran ərazisindən keçməsi təşəbbüsünü qaldırır. ABŞ bununla razılaşmır, C.O'Brayn isə Vaşinqtonun Bakı ilə münasibətləri korlayacağı ilə bağlı hədə-qorxu tonuna baş vurur. Əlbəttə, ölkəmizin cavabı onu deməyə əsas verir ki, belə yanaşma və təzyiq dili keçərsizdir.

***

Bəs, Naxçıvana yol xüsusunda keçərli olan nədir? Azərbaycan Prezidenti məlum forumdakı çıxışında bu barədə də söz açıb: "Ermənistanın hazırda iki variantı var. Birincisi, öz xərcləri, yaxud da Avropa fondlarının pulu ilə dərhal 42 kilometrlik məsafədə dəmir yolu çəksin. Biz bunu, əslində, onların suveren ərazisi hesab edirik və suverenliklə bağlı bizim şərtimiz yoxdur. Lakin Azərbaycandan Naxçıvana asan çıxış olmalıdır. Bununla bağlı hansısa gömrük yığımı, yoxlamalar, sərhədçilərin prosedurları olmalı deyil. Bu, bizim legitim hüququmuzdur".

Göründüyü kimi, Naxçıvana yolun hansı kontekstdə Azərbaycanın legitim hüququ olduğunu açıqlanır. Üstəlik, bu açıqlamada Ermənistana qarşı hər hansı ərazi iddiasından da söhbət gedə bilməz. Yəni, İrəvan və havadarları arxayın olsunlar ki, məsələ heç də qəsbkarlıqda deyil. Məsələ Rusiyanın Kaliningradla dəmir yolu xətti təcrübəsinə oxşar təcrübənin tətbiqindədir. Yeri gəlmişkən, dövlətimizin başçısı mövcud məqamı Brüsseldə Paşinyanla müzakirə etdiyini də xatırladıb. Əlbəttə, ikincinin bununla razılaşmadığını da.

Belə bir vəziyyətdə, əlbəttə, Ermənistanın öhdəliklərini yerinə yetirməməsi ilə bağlı məsələ kəskinləşməlidir və kəskinləşir də. Həm də ona görə ki, dövlətimizin başçısının Paşinyana bununla bağlı dəfələrlə dediyi sözlər, onu düz yola gətirmək cəhdləri var: "Mən Ermənistanın baş nazirindən dəfələrlə soruşmuşam ki, onlar nəyə görə üzərilərinə götürdükləri öhdəlikləri yerinə yetirmirlər? Doqquzuncu maddəyə (2020-ci il 10 noyabr tarixli Bəyanatın – red.) uyğun olaraq, Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında əlaqə yaradılmalıdır. Orada, həmçinin qeyd olunub ki, nəzarəti kim təmin edəcək və Paşinyanın özü bunu imzalayıb. İndi isə bu, artıq mümkün deyil. Nə həmin marşrut var, nə də Rusiyanın iştirakı. Yəni, əslində, bu, hüquqi baxımdan artıq qüvvəsini də itirmiş kimidir. Çünki öhdəlik var, amma onlar öhdəliyi yerinə yetirmirlər".

Öhdəlik yerinə yetirilmirsə, Azərbaycanın Naxçıvana alternativ yol axtarışı təbiidir. Eləcə də yuxarıda bildirdiyimiz kimi, İran variantına, yəni yolun İran ərazisindən keçməsinə üstünlük verilməsi də, həmçinin. Ancaq öhdəlikləri yerinə yetirməmək ucuz başa gəlməməlidir. Ermənistan buna görə itirməlidir. İtirməli və əvvəllər olduğu kimi, yenə təcrid durumunda qalmalıdır. Ölkəmizin liderinin çıxışındakı qətiyyət və prinsipiallıq motivləri onu deməyə əsas verir ki, İrəvanı təcriddə saxlamaq da Azərbaycanın müstəsna hüququdur. "Azərbaycan ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantını təmin edəcək, əslində, beynəlxalq daşımalar dəhlizinə çevriləcək. Bu, o deməkdir ki, Azərbaycan ilə Türkiyə arasında bağlantı yaradılır. Ermənistan özünü bundan məhrum etdi, həmçinin Azərbaycanla bütün digər kommunikasiyaların açılmasından məhrum edir", – deyən Prezident İlham Əliyev Paşinyana və onu meydana atanlara, erməni baş nazirin Qərbdəki dostlarına konkret mesaj verir.

***

Sonda ümumiləşdirmə apararaq, dövlətimizin başçısının mesajını bir neçə aspektdə qruplaşdıraq. Birincisi, ermənipərəstlik Azərbaycanın maraq və mənafelərinin nəzərə alınmaması ilə gerçəkləşdirilə bilməz. İkincisi, Naxçıvana yol Azərbaycan-Ermənistan sülh gündəliyinin vacib komponentidir və bu komponentin nəzərə alınmaması mümkünsüzdür. Üçüncüsü, Ermənistan heç bir halda Azərbayacana qarşı gələcək təzyiqlər üçün yetişdirilə bilməz. Daha doğrusu, ölkəmiz onun güclənməsinə, regionda nəyisə həll etmək statusuna malik tərəfə çevrilməsinə imkan verməyəcək. Dördüncüsü, Cənubi Qafqazda mühüm regional layihələrdə Bakının həlledici sözü mütləqdir. Məsələnin bu qoyuluşuna alternativin irəli sürülməsi qəbuledilməzdir. Beşincisi, Ermənistanın "Dünya kəsişməsi" və sair bu sayaq təşəbbüsləri, obrazlı desək, ölü doğulmuş uşaqdır. Altıncısı və ən əsası, Ermənistanın nicatı Azərbaycandır. Yəni, Azərbaycanla sülh şəraitində, səmimiyyət mühitində yaşamaqdır.

Bəli, Prezident İlham Əliyevin "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirdiyi fikirlər, eləcə də həmin fikirlərə əsasən gəldiyimiz yekun qənaət onu deməyə əsas verir ki, ölkəmiz hazırda topu Ermənistan tərəfə ötürüb. İndi ölkənin rəhbərliyi ciddi fikirləşməli və rəzil duruma düşməmək üçün qərar verməlidir. Daha dəqiq desək, İrəvan seçim etməlidir: ya Qərbin minnətli yardımı, artıq-urtuğu ilə dolanmaq, ya da payına düşəni, haqqı çatanı götürmək. Bu haqq azdır, ya çoxdur, dəxli yoxdur. Hərçənd, Prezident İlham Əliyevin bildirdikləri İrəvanın öz şansını qaçırdığını söyləməyə əsas verir. Dövlətimizin başçısının İranla əldə edilmiş razılığın detallarından söz açması, obrazlı desək, Ermənistan üçün qatarın getdiyinin təsdiqi kimi də qiymətləndirilə bilər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Selektiv yanaşma – Prezidentin qətiyyət manifestindəki etiraz motivi

## Yaxud dünyanın ikili standartlar siyasəti və erməni avantürizminə dəstək təmayülü

**Qırx dörd günlük müharibənin başlandığı ilk on gün hər birimizin yaxşı xatirindədir. Həmin vaxt dünyanın media vasitələri elə fon yaradırdılar ki, sanki, Azərbaycan işğalçılıq müharibəsi həyata keçirməkdədir. Onlara ayrı-ayrı beynəlxalq qurumlar, ermənipərəst dairələr, erməni lobbi və diaspor təşkilatları özlərinin qərəzli, obyektivlikdən tam uzaq bəyanatları ilə dəstək verirdilər. Yaxud əksinə, ikincilər birinciləri "ruhlandırır", "istiqamətləndirirdilər". Həqiqətən, dəhşətli durum yaşanırdı. Söhbətimiz bu barədədir.**

Əlbəttə, 44 günlük müharibə günlərində Azərbaycan Prezidenti İlham Əliyevin dünyanın aparıcı kütləvi informasiya vasitələrinə çoxsaylı müsahibələri ölkəmizlə bağlı yanlış informasiya "sel"ini aradan qaldırdı. Hiss etdik ki, mövcud sahədə yumşalmalar, həqiqətləri görmə və dəyərləndirmə meyilləri var. Lakin müharibənin başa çatmasından sonrakı zaman kəsiyinin təhlili onu göstərir ki, üç il əvvəlin sözügedən yaramaz tendensiyası bu gün üçün də "aktuallığını" saxlamaqdadır. Mövzuya toxunmaq zərurəti də bundan qaynaqlanmaqdır.

Prezident İlham Əliyev ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə dekabrın 6-da keçirilmiş "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumundakı çıxışında bildirdi ki, tərəfdaş hesab etdiyimiz bəzi ölkələrlə müəyyən anlaşılmazlıq yaşayırıq. Dövlətimizin başçısının haqqında söz açdığı anlaşılmazlıq da diqqətə çatdırdığımız "aktuallığın" nəticəsidir.

Bəli, heyrətə gəlməmək mümkünsüzdür. Müxtəlif beynəlxalq təşkilatlar, ayrı-ayrı şəxslər, o cümlədən, dünya rəsmiləri Azərbaycan – Ermənistan münasibətlərindən söz açarkən, tez-tez "Dağlıq Qarabağ", "Dağlıq Qarabağ münaqişəsi" və sair bu kimi ifadələr işlədirlər. Deməli, Azərbaycanın ərazi bütövlüyü anlayışına, ölkəmizin yurisdiksiyasına hörmətsiz yanaşırlar. Nəzərə almırlar ki, birincisi, münaqişə var idi, indi yoxdur, ikincisi Azərbaycan ərazisində "Dağlıq Qarabağ" adlı ərazi vahidi ömrünü tapşırıb. Sanki, münaqişə varmış kimi davranırlar və mövcud xüsusdakı ritorika beynəlxalq ictimai rəydə çaşqınlıq yaradır.

Ermənistan bu çaşqınlıqdan "yararlanır". Ölkənin təbliğat maşını Azərbaycanın Qarabağı, guya, işğal etdiyinə dair təəssürat formalaşdırmağa girişir. Ən pisi isə budur ki, İrəvanın formalaşdırdığı təəssürat fonunda erməni avantürizminin Qarabağ seqmenti "aktuallığını" qoruyur, bu seqmentin beynəlxalq ictimai rəydə, bir növ, leqallaşdırılması gerçəkləşdirilir. Bəli, Ermənistan və havadarlarının Azərbaycanın Qarabağa sahiblənməsi, o cümlədən, ölkəmizin bölgədə bu il sentyabrın 19-da keçirdiyi lokal xarakterli uğurlu antiterror tədbirlərini qəsbkarlıq niyyəti olaraq qiymətləndirməsi fonunda, beynəlxalq təşkilatların əsl həqiqətləri dilə gətirməkdən yan keçmələri son dərəcə riyakar ab-hava yaradır. Nəzərə alaq ki, bu ab-hava beynəlxalq hüququn prinsipləri ilə daban-dabana ziddir. Elə buna görə də Prezident İlham Əliyev forumdakı çıxışında BMT Nizamnaməsinin 51-ci maddəsini yada salır.

Həqiqətən, dünya ölkəmizin yalnız sözügedən maddənin özünümüdafiə hüququndan istifadə etdiyinin fərqinə varmır. Ona görə ölkəmizin lideri tərəfdaş hesab etdiyimiz bəzi ölkələrlə müəyyən anlaşılmazlıqların yaşandığını bildirərkən bunları da vurğulayır: "Biz öz mövqeyimizi onlara çatdırırıq və bütün ölkələrə qarşı beynəlxalq hüququn şamil olunmasının vacibliyini qeyd edirik. Bu, selektiv olmamalıdır".

***

Bəli, Azərbaycan Prezidentinin haqqında söz açdığı selektiv yanaşma dünyanın ölkəmizə münasibətdəki ikili standartlar siyasətinin bariz göstəricisidir. İllərlə torpaqlarımızın işğal altında qalmasının bir səbəbi də məhz bu siyasət idi. İndi işğal dövrü başa çatıb, ancaq ikili standartlar siyasəti yenə öz "mahiyyətini" və təzahür formalarını saxlamaqdadır. Mövcud tendensiya isə Ermənistanı reallıqları görməkdən uzaqlaşdırır, eyni zamanda, ölkənin hakim dairələrini və siyasi çevrələrini illüziya bataqlığına sürükləyir. Bu tendensiya, eyni zamanda, Ermənistanda revanşist meyilləri gücləndirir, şovinizmi alovlandırır. Nəticə dünyanın Cənubi Qafqazdan sülh gözləntisinə tərs-mütənasib vəziyyət formalaşdırır. Görəsən, beynəlxalq qurumlar və onların təmsilçiləri məsələ barədə düşünmürlərmi? Belə görünür, düşünmürlər, ya da...

***

Əlbəttə, dünyanın bəzi qütblərinin Cənubi Qafqaz müstəvisində rəqabət apardığını qəbul edirik. Əslində, cənab İlham Əliyev də əvvəlki çıxışlarının birində mövcud məqama toxunmuşdu. Prezident, hətta, təxminən belə bir ritorik sual ünvanlamışdı: Rəqabət nə vaxt olmayıb ki?.. Ancaq, bu, o deməkdirmi ki, rəqabət beynəlxalq hüquq normalarının heçə sayılması ilə müşayiət edilməlidir? Axı, həmin normalara əhəmiyyətsiz münasibət müstəvisində bəşəri dəyərlərlə manipulyasiya qorxunc presedent yaratmaq təbiətinə malikdir. Nəzərə alaq ki, ikili yanaşma tətbiq olunsa, elə Avropanın özündə neçə-neçə münaqişə zonası formalaşa bilər. Məsələn, Fransa və Almaniya arasında Elzas və Lotaringiya uğrunda mübarizə, İspaniyada bask problemi, İrlandiyada Oslter məsələsi və sair. Bütün bunların "qoca qitə"nin axarına son dərəcə mənfi təsir göstərəcəyi şübhəsizdir. Bu yerdə deyilə bilər ki, Şengen zonasında birləşmiş Avropa, böyük ölçüdə, münaqişə dövrünü başa vurub. Elə isə nə üçün qitənin aparıcı qurumları vaxtilə özlərində mövcud olmuş münaqişələrə bənzər xoşagəlməz durumların başqa yerlərdə yaşanmasında maraqlıdırlar? Ona görə ki, rəqabət aparırlar?!

***

Azərbaycan Prezidenti bildirir: "Təəssüflər olsun ki, Avropada liderlər arasında cənab Borrel, xanım Metsola kimi populist insanlar var. Mən hər zaman açıq danışmağı xoşlayıram. Mən onların yürütdüyü siyasətlə və Azərbaycana olan münasibətləri ilə tamamilə razı deyiləm, narazıyam. Bu, ədalətsizdir və heç də Avropa İttifaqının maraqlarına uyğun deyil".

Göründüyü kimi, ölkəmizin lideri son dərəcə vacib məqama toxunur. Dövlətimizin başçısı Aİ-nin xarici işlər və təhlükəsizlik üzrə ali nümayəndəsi Borrellin və Avropa Parlametinin prezidenti Roberta Metsolanın aşkar anti-Azərbaycan və ermənipərəst mövqeyinin qəbuledilməzliyini vurğulayarkən, bunun Avropa İttifaqının maraqlarına uyğun olmadığını önə çəkir. Əlbəttə, qurumun hazırda Azərbaycanla əməkdaşlıq müstəvisini də əsas götürür. Digər tərəfdən, nəzərə alınmalıdır ki, hər iki şəxsin aşkar tərəfkeşliyi həm də Aİ-nin bəyan etdiyi prinsiplərə ziddir. Məgər bu şəxslərə Minsk qrupunun timsalında ATƏT-in otuz ilə yaxın müddətdə öz prinsiplərini çeynəməsinin, reallıqdan uzaq mövqe tutmasının yekunda heç bir nəticə vermədiyi dərs olmayıb?

Bəli, beynəlxalq aləm bütün məsələlərdə obtektiv davranmalı, indiki halda özünün ermənipərəstlik şakərindən qurtulmalı, haqq və ədalətin təntənəsi naminə çalışmalı, mütərəqqi mahiyyət ortaya qoymalı, Azərbaycana, xalqımızın haqq işinə münasibətdə səmimiyyət nümayiş etdirməlidir. Azərbaycan Prezidentinin "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumundakı çıxışında vurğuladığı vacib məqamlardan biri məhz bu idi. Haqqında söz açdığımız mühit formalaşmayanadək, beynəlxalq hüquq normaları manipulyasiya məngənəsində boğulmaqdan xilas olmayanadək Cənubi Qafqaz erməni avantürizminin cəngindən qurtulmayacaq. Bunun baş verməməsi isə bölgədə dayanıqlı sülhə və əminamanlığa ciddi təhdid olaraq qalacaq.

***Əvəz RÜSTƏMOV***
***XQ***

# Ağ Evin qərarı: Qafqazda Azərbaycanla irəli!

## 31 il əvvəl qurulan münasibətlər bu gün zamanın sınağından çıxaraq reallığa köklənir



(əvvəli 1-ci səhifədə)

### Üzrxahlıq qəbul olundu

Ötən ay ABŞ Konqresində Azərbaycan əleyhinə "alovlu" çıxış edən Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynin Azərbaycana hansı təkliflər paketi ilə gəldiyi və burada nələri söyləyəcəyi maraqla gözlənilirdi. C.O'Brayn Bakıda Prezident İlham Əliyevlə görüşündə, faktiki olaraq, Konqresdə dediyi sözlərdən fərqli ampluada, üç həftə əvvəl ərz etdiklərindən imtina edirmiş kimi görünürdü. Bəzi ekspertlər bunu Ağ Ev rəsmisinin Bakıdan üzrxahlıq jesti kimi dəyərləndirirlər. Axı, onun noyabrın 15-də Konqresdəki həmin çıxışı Azərbaycandan daha çox supergücün təhlükəsizlik maraqlarına, o cümlədən, Cənubi Qafqazda təsir imkanlarını artırmaq səylərinə zərbə vurmuşdu. Bakıda diplomatiya dərsi alan cənab O'Braynın İlham Əliyevlə görüşündə ikitərəfli münasibətlərə vurduğu ziyanı "kompensasiya" etmək istəyi aydın sezilirdi. Elə onun "X" hesabında ABŞ–Azərbaycan münasibətlərinin gələcəyini müzakirə etmək üçün Prezident İlham Əliyevlə konstruktiv danışığın baş tutduğunu yazmasını etiraf kimi qəbul etmək olar. O, paylaşımında, eyni zamanda, Cənubi Qafqazda dayanıqlı və ləyaqətli sülhün bərqərar olmasının tarixi imkanlar açacağını vurğulayıb. C.O'Brayn, həmçinin Dövlət katibi Antoni Blinkenin sülh danışıqları üçün Azərbaycan və Ermənistan xarici işlər nazirlərini tezliklə Vaşinqtonda qəbul etməyi səbirsizliklə gözlədiyini qeyd edib.

Beləliklə, Ağ Evin "xüsusi tapşırıqlar üzrə elçisi" Ceyms O'Braynın Bakıda Prezident İlham Əliyev və Xarici İşlər naziri Ceyhun Bayramovla görüşlərində müzakirə olunan məsələlər ABŞ–Azərbaycan münasibətlərində birincinin günahı üzündən yaranmış anlaşılmazlığın aradan qalxdığını, ikitərəfli təmasların normal məcraya qayıtdığını söyləməyə tam əsas verir. Konqresdə ermənipərəst "semlərin" təşkil etdiyi məlum anti-Azərbaycan müzakirələrlə bağlı rəsmi Bakı özünün prinsipial mövqeyini ortaya qoydu və ölkəmizlə münasibətləri bu tərzdə davam etdirməyin mümkünsüzlüyünü Vaşinqton isteblişmentinin nəzərinə çatdırdı. Amma Ağ Evin O'Braynın üzrxahlığını rəsmi Bakının nə dərəcədə qəbul etməsinin Vaşinqtonun bundan sonra atacağı konkret addımlardan asılı olacağı birmənalıdır.

### ABŞ bölgədə sülhə töhfə verə bilər

Bəli, bölgədə öz hədəflərinə çatmaq üçün Vaşinqtonun Bakıya ehtiyacı var. Məhz buna görə indi Birləşmiş Ştatlar erməni lobbisinin korporativ maraqları naminə Azərbaycanla münasibətləri korlamağın, qarşıdurmanın yox, bərabər hüquqlu tərəfdaş kimi uzlaşmağın marağındadır. Bakı, təbii olaraq, bu üstünlüyündən diplomatik müstəvidə yararlanır. İntəhası, o da bəllidir ki, son vaxtlar kommunikasiyaların harada və necə açılacağı uğrunda mübarizə Cənubi Qafqaza daha aktiv şəkildə transformasiya edilir. Bu isə o deməkdir ki, yaxın perspektivdə bölgə böyük güclərin qarşıdurma meydanına çevrilmək təhlükəsi ilə üzləşə bilər.

"Vaşinqton yeni reallıqları nəzərə almaqla, Bakı və İrəvan arasında münasibətlərin normallaşması prosesinə öz töhfəsini verə bilər". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın diqqətinə çatdırıb. Həqiqətən də, Azərbaycanın öz suverenliyini bərpa etməsi ilə yaratdığı yeni reallıq şəraitində sülhə nail olma şansı da artıb. ABŞ artıq bu reallığı qəbul edir. Ağ Evin Qafqazda Azərbaycansız irəliləməyin mümkün olmadığını dərk edərək, ikitərəfli münasibətləri irəliyə doğru aparmağa qərar verdiyini söyləyə bilərik.

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən **Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** hesab edir ki, Vaşinqton



ABŞ–Azərbaycan münasibətlərində yaranmış gərginliyi aradan qaldırmağa müəyyən mənada nail oldu: "Konqresdə Bakının ünvanına səslənən hədə-qorxular, düşünülməmiş bəyanatlar, əlbəttə ki, Birləşmiş Ştatların milli maraqlarına xələl gətirirdi. Vəziyyəti düzgün qiymətləndirən Vaşinqton münasibətləri sağlam və real istiqamətdə tənzimləməyə çalışır. Bunun nə dərəcədə davamlı olacağını indidən demək çətindir. Hər bir halda hiss olunur ki, həmin O'Braynın Konqresdəki anti-Azərbaycan ruhlu çıxışı, ünvanımıza səsləndirilən məsuliyyətsiz bəyanatlar daha çox daxili auditoriyaya hesablanmışdı. Yəni, ermənilərə lobbiçilik edənlər, guya, bununla onlara "can yandırdıqlarını" nümayiş etdirirlər. Amma ortadakı reallıq ABŞ-ı Azərbaycanla münasibətləri qoruyub saxlamağa, inkişaf etdirməyə sövq edir. Çünki Ağ Evin Cənubi Qafqazdakı bütün milli maraqları Ermənistana deyil, Azərbaycana bağlıdır. Belə olduğu təqdirdə əgər ikitərəfli münasibətlər korlanırsa, bundan təkcə Azərbaycan itirmir. İndiki məqamda daha çox itirən tərəf ABŞ-ın özüdür. Düşünürəm ki, bundan sonra həm Vaşinqtonda, həm də Bakıda məlum hadisələrin fəsadlarını neytrallaşdırmağa, ziyanı minimuma endirməyə çalışacaqlar".

Yaranmış indiki durumda Vaşinqton yeni reallıqları nəzərə almaqla, İrəvan–Bakı sülh dialoqunun müsbət sonluğa qovuşmasına öz töhfəsini verməklə, həm də bölgədə mövqeyini möhkəmləndirmək şansını qazanacaq. Bunun üçün Vaşinqton Azərbaycanın ərazi bütövlüyünü, üzərində suverenliyini bərpa etdiyi Qarabağdan danışmağı dayandırmalı, bu mövzuya nöqtə qoymalıdır.

### İrəvan şansını düzgün dəyərləndirərsə...

Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılmasında ABŞ-ın roluna toxunan C.O'Brayn Transxəzər nəqliyyat dəhlizi konsepsiyasının inkişafı, Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılmasına dair müzakirələrin davam etdirilməsini ABŞ-ın dəstəkləndiyini vurğulayıb. Onun dedikləri, əslində, ABŞ-ın Çindən Avropaya uzanan Orta dəhliz layihəsini Mərkəzi Asiyadan Avropaya çıxan Transxəzər marşrutu ilə əvəzləmək, eləcə də kommunikasiyanın İrəvanın istəyi nəzərə alınaraq açılması şərti ilə Ermənistanın da bu prosesdə iştirakını təmin etmək planıdır. Göründüyü kimi, ABŞ Dövlət Departamentinin rəsmisi Bakıya həm də konkret təkliflə gəlib. Azərbaycan Prezidenti bununla bağlı O'Braynlə görüşdə Bakının yanaşmasını ortaya qoyub. Dövlət başçımız Azərbaycanın Ağ Evlə transmilli layihələri, o cümlədən, Orta Dəhliz üzərində yeni əməkdaşlıq imkanlarını müzakirə etməyə açıq olduğunu bildirib. Yəni, Azərbaycan bu istiqamətlərdə ABŞ-ın planlarına yox demir. Fəqət, bu zaman hansı tərəf qabağa düşərsə və Bakı üçün daha faydalı təkliflər irəli sürərsə, onunla işləməyə üstünlük verəcək.

İrəvan isə həm sülh sazişi, həm də Zəngəzur dəhlizi ilə bağlı öhdəliklərini yerinə yetirəcəyi təqdirdə regional layihələrə qoşulmaq şansını əldə edə bilər.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Elxan Şahinoğlu** bildirib



ki, amerikalı diplomatın Azərbaycan əleyhinə məlum çıxışından sonra Xarici İşlər naziri Ceyhum Bayramov Vaşinqtonda erməni həmkarı Ararat Mirzoyanla görüşdən imtina etdi, rəsmi Bakı Ağ Evin Azərbaycan və Ermənistan arasında vasitəçiliyini kənara qoydu: "Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycanla əməkdaşlığa vurulan zərbə ABŞ-ın təhlükəsizlik maraqlarına zidd idi. Gözlənildiyi kimi, Bakıda Ceyms O'Braynla İlham Əliyev arasındakı görüşdə münasibətlərdəki müsbət məqamlar önə çəkildi. Birincisi, İlham Əliyev Azərbaycan ilə ABŞ arasında münasibətlərin zəngin tarixinin olduğunu, müstəqillik illərində müxtəlif sahələr üzrə əlaqələrin qurulduğunu, xüsusilə energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı. İkincisi, İlham Əliyev Azərbaycanın suverenliyini tam şəkildə bərpa edəndən sonra sülhün bərqərar olması üçün tarixi imkanlar yarandığını və ABŞ-ın yeni reallıqlar nəzərə alınaraq bu prosesə öz töhfəsini verə biləcəyini dedi. Ağ Ev rəsmisi İlham Əliyevin sözlərini təsdiqlədi.

Amerikanın bölgədə sülh gündəliyini, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasını, sülh sazişi üzrə danışıqları dəstəklədiyini deyən O'Brayn danışıqların Vaşinqtonda davam etdirilməsi üçün ABŞ-ın hazır olduğunu diqqətə çatdırdı. O, bundan başqa Transxəzər Nəqliyyat Dəhlizi konsepsiyasının inkişafı, həmçinin Ermənistan ilə Azərbaycan arasında kommunikasiyaların açılması üzrə müzakirələrin davam etdirilməsinin ABŞ tərəfindən dəstəkləndiyi vurğuladı".

Politoloq daha sonra qeyd etdi ki, bütün bunlar azdır. Vaşinqton Azərbaycana verdiyi əhəmiyyəti atacağı konkret addımlarda göstərməlidir: "O'Brayn, Ağ Evin digər rəsmiləri bundan sonra Azərbaycan əleyhinə fikirlər söyləmədikləri halda rəsmi Bakı Vaşinqtonun vasitəçiliyinə müsbət yanaşacaq və yalnız bu halda ABŞ paytaxtında görüşlər yenidən başlaya bilər".

İkitərəfli münasibətlərin müsbət məcrada davam etdirilməsi üçün vacib şərtlərdən biri Azərbaycan rəsmilərinin də ABŞ-a səfərlərinin bərpa olunmasıdır. Bununla da ABŞ–Azərbaycan münasibətləri özünün əvvəlki konstruktiv səviyyəsinə qayıdır.

Bəs rəsmi Vaşinqton ABŞ Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin üzdəniraq bəzi üzvlərinin təxribat xarakterli çıxış və bəyanatlarına siyasi qiymət, yaxud şərh verəcəkmi? Məntiqlə Bayden Administrasiyası bu faktı diqqətlə araşdırmalıdır. Çünki ABŞ-dakı zəngin və nüfuzlu erməni diasporunun, haylara lobbiçilik edənlərin dezinformasiyadan yararlanmaqla Azərbaycana qarşı təcavüzkar və zərərli kampaniyasının səngiyəcəyinə heç kəs zəmanət verə bilməz. Xüsusilə, son üç ildə ermənilərə lobbiçilik edənlərin ABŞ-ın dövlət siyasətinə, milli maraqlarına potensial təhlükə mənbəyinə çevrildiyi göz qabağındadır. Son hadisələr göstərdi ki, bu zərərli təmayül, ilk növbədə, ABŞ və Azərbaycan arasındakı münasibətlərə xələl gətirir. Bakı səmimi etirafı qəbul etməklə Vaşinqtona tərəf özünün xoşməramlı addımını atdı. İndi növbə Ağ Evindir.

*İmran BƏDİRXANLI*
*XQ*

# Xəzər Şurası ideyası: fikirlər haçalanır

## Lavrovun yeni təşəbbüsünün nə vəd etdiyi tam aydın deyil

**Müstəqil daxili və xarici siyasət yürüdən Azərbaycan Respublikası region ölkələri ilə ikitərəfli və çoxtərəfli formatda əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi önəm verir. Ölkəmizin fəal iştirak etdiyi regional platformalara nümunə olaraq Türk Dövlətləri Təşkilatını, Müstəqil Dövlətlər Birliyini, GUAM – Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatını, yeni yaranmaqda olan 3+3 formatını göstərmək olar.**

Noyabrın 24-də Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşünün keçirilməsi ölkəmizin həmin platformada iştiraka da mühüm əhəmiyyət verdiyinin göstəricisidir. Region ölkələri onların paytaxtlarında keçirilən tədbirlərdə Azərbaycanın iştirakında maraqlı olduqlarını açıq şəkildə bəyan edirlər.

Belə əməkdaşlıq formatlarından biri də qeyri-rəsmi olaraq Xəzəryanı ölkələr – Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran arasında qurulub. Beş ölkənin liderləri vaxtaşırı görüşlər keçirirlər. Bu görüşlərin nəticəsi olaraq 2018-ci il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində beş Xəzəryanı dövlətin başçısı beşinci Xəzər Zirvə toplantısında "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya"nı imzalayıblar. 24 maddədən ibarət konvensiya üzərində 20 ildən çox – 1996-cı ildən iş gedib.

2023-cü il dekabrın 5-də isə Moskvada Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin görüşü keçirilib. Görüşdə bütün Xəzəryanı dövlətlərin xarici işlər nazirləri iştirak ediblər. Toplantıda Xəzəryanı dövlətlər arasında müxtəlif, o cümlədən, iqtisadi, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, kommunikasiyalar, ətraf mühitin mühafizəsi və sair sahələr üzrə sektoral əməkdaşlıq gündəliyi ətrafında fikir mübadiləsi aparılıb.

Rusiya Xarici işlər naziri Sergey Lavrov giriş nitqində bildirib: "Bu gün biz əminliklə deyə bilərik ki, Xəzər dənizində əməkdaşlıq yüksək səviyyəyə çatıb. Lakin beştərəfli qarşılıqlı fəaliyyətin keyfiyyətinin yüksəldilməsi və onun beynəlxalq hüquqi əsaslarının möhkəmləndirilməsi üçün əlavə səylər tələb olunur. Bugünkü iclas da məhz bu vəzifələrə həsr olunub. Biz Xəzər sammitlərinin qərarlarının həyata keçirilməsi kontekstində vacib olan mövzuların geniş spektrini müəyyən etmişik. Diqqətimizi praktiki məsələlərə və baxdığımız sənədlərin layihələrinə yönəldəcəyik".

Daha sonra Rusiya XİN başçısı yeni təşəbbüslə çıxış edib. Deyib ki, heç bir bürokratik sxemi olmayan (katibliklər kimi) əməkdaşlıq və dialoq forumu olan Xəzər Şurasının yaradılması ilə işin səmərəliliyini artırmaq olar. S.Lavrov bu təşəbbüsün maraqlı müzakirəsini gözlədiklərini vurğulayıb.



O, həmçinin deyib ki, Xəzəryanı dövlətlər arasında praktiki əməkdaşlıq Avrasiyada təhlükəsizliyin, sabitliyin və davamlı inkişafın təmin edilməsinə töhfə verir: "Xəzəryanı dövlətlər arasında praktiki əməkdaşlığın dərinləşməsi daha geniş mənada da aktualdır. Mən çoxqütblü dünya nizamının formalaşmasını dünya inkişafının yeni mərkəzlərinin mövqelərinin möhkəmlənməsi kontekstində nəzərdə tuturam. Bu kontekstdə Xəzəryanı ölkələrin birgə fəaliyyəti Avrasiya qitəsində təhlükəsizliyin, sabitliyin və davamlı inkişafın təmin edilməsinə mühüm töhfə verir".

Rusiyanın media qurumları məsələ ilə bağlı şərhlərində qeyd ediblər ki, S.Lavrovun təklifi xarici işlər nazirləri arasında qarşılıqlı əlaqələrin daha da sıxlaşdırılmasını, qarşıya çıxan problemlərin, anlaşılmazlıqların operativ qaydada həllini nəzərdə tutur. Siyasi Təhlil və Sosial Tədqiqatlar Mərkəzinin direktoru Pavel Danilin qeyd edib ki, Rusiyanın iştirakı ilə bir sıra beynəlxalq tədbirlərin uğurla keçirilməsi, irəli sürülən təşəbbüslər, eləcə də Moskvada keçirilən görüşlər ölkəsinin təcrid olunmuş vəziyyətdə olmadığını göstərir: "Kreml enerji resursları ilə bağlı mövcud qlobal vəziyyəti nəzərə alaraq, Xəzəryanı ölkələr arasında təbii qaz sahəsində əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirir. Dekabrın 5-də Moskvada keçirilən görüş də Rusiya üçün Xəzəryanı qonşuları, o cümlədən, uzun illərdir sanksiyalar altında olan İranla iqtisadi və strateji əməkdaşlığı müzakirə etmək imkanıdır".

Postsovet Araşdırmaları Mərkəzinin Mərkəzi Asiya üzrə baş elmi işçisi Stanislav Pritçin qeyd edib ki, Rusiya Federasiyası hazırda Mərkəzi Asiya ölkələrinə münasibətdə xarici siyasətini yenidən qurur: "Avropa İttifaqı və bütövlükdə, Qərb istiqamətinin Rusiya üçün prioritet olmadığı bir vaxtda alternativ istiqamətlər axtarışı gedir. Buna görə də Avrasiyada, o cümlədən, Xəzərdə bütün dialoq platformaları yenilənir. Xəzər dialoqu çərçivəsində regionun potensialını və perspektivlərini reallaşdırmaq üçün iqtisadi və investisiya əməkdaşlığının intensivləşdirilmiş imkanlarının tapılması istiqamətində iş aparılır".

Bəzi ekspertlər isə Lavrovun təklifinin arxasında Rusiyanın narahatlığının dayandığını bildirirlər. Məsələn, Karnegi Fondunun Moskvadakı ofisinin əməkdaşı Kirill Krivoşayev hesab edir ki, Rusiya yeni formatın yaradılması üzərində düşünərək Xəzər hövzəsinə dənizə həmsərhəd olmayan ölkələri buraxmamaq üçün səylər göstərir: "Hansısa şura yarana bilər. Düşünürəm ki, bu şurada bir sıra problem xarakterli məsələlərin müzakirə mövzusu olması mümkündür. Lakin onun geniş imkanlara malik olacağına inanmıram. Regiona yeni oyunçuların daxil olmasının, yeni əməkdaşlıq proseslərinin yaranmasının qarşısını yeni yaradılan təşkilatla almaq mümkün deyil. Rusiya özü əməkdaşlığa hazır olmalıdır. Moskva ya iştirakçı olmalı, ya da özünü təcrid etməlidir".

Sözsüz ki, Rusiyanın baş diplomatının təklifinin reallaşıb reallaşmayacağını, reallaşacağı təqdirdə nə dərəcədə səmərəli olacağını zaman göstərəcək. Lakin qeyd etməliyik ki, bu təşəbbüs yeni deyil. Hələ 2021-ci ilin dekabrında S.Lavrov Xəzəryanı dövlət başçılarının Aşqabadda keçiriləcək növbəti sammitində Rusiya tərəfindən Xəzər Şurasının yaradılması təşəbbüsünün irəli sürüləcəyini söyləmişdi: "Biz Xəzər Şurasının Həştərxanda yerləşməsini təklif edirik. Hazırda detallar razılaşdırılır. Hələlik heç kəs bu təşəbbüsə etiraz etmir. Bir sıra həmkarlarımız tərəfindən bunun növbəti bürokratik struktur olacağı ilə bağlı qorxuları var. Burada, yəqin ki, əsas məsələ bunu necə təşkil etməkdir. Bunu hansısa böyük katiblik maşını kimi deyil, Xəzər əməkdaşlığının müxtəlif aspektləri ilə bağlı, sadəcə, müntəzəm qurum kimi təşkil etmək olar. Bu, təkcə Xəzəryanı ölkə başçılarının sammitinə hazırlıq kontekstində deyil, daimi əsasda olmalıdır".

Onu da bildirək ki, Azərbaycan Xəzəryanı dövlətlər arasında əməkdaşlığın möhkəmləndirilməsinə hər zaman böyük önəm verir. Ölkəmiz Xəzər regionu çərçivəsində beynəlxalq hüquq normalarının, xüsusilə dövlətlərin ərazi bütövlüyünün, suverenliyinin, sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmətin rəhbər tutulmasının vacibliyini vurğulayır. Azərbaycan dənizdən sülh, dostluq və həmrəylik məqsədləri naminə birgə istifadə üçün Xəzəryanı dövlətlər arasında mövcud müqavilə-hüquq bazasının möhkəmləndirilməsinin, habelə "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın ən qısa zamanda qüvvəyə minməsinin tərəfdarıdır.

Eyni zamanda, ölkəmiz dənizin ekoloji durumu ilə bağlı məsələləri diqqətdə saxlayır. Konvensiyada da qeyd edilir ki, irimiqyaslı dəniz layihələri həyata keçirilərkən ekoloji amil nəzərə alınmalıdır. Üstəlik, dənizin dibi ilə boru kəmərinin çəkilməsi zamanı bütün "beşlik" ölkələrinin razılığı tələb olunmur, təfərrüatlar boru kəmərinin keçdiyi dövlətlər tərəfindən razılaşdırılır. Xəzəryanı ölkələrin qarşısında duran ən mühüm problemlərdən biri Xəzərin dayazlaşması və bunun nəticəsində yaranan ekoloji fəsadlardır. Qeyd edək ki, bununla bağlı da Prezident İlham Əliyev aidiyyəti üzrə ekspert qrupunun yaradılması təşəbbüsü ilə çıxış edib. Hazırda Bakıda ekspertlərin müvafiq görüşünün təşkili istiqamətində işlər aparılır.

Göründüyü kimi, Azərbaycan zəngin neft-qaz yataqlarının yerləşdiyi Xəzərin dostluq və əməkdaşlıq hövzəsinə çevrilməsində maraqlıdır. Eyni zamanda, onun ekologiyasının, flora və faunasının qorunması da ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Xəzərlə bağlı təşəbbüsləri hər zaman dəstəkləyib. Ölkəmizin yeganə istəyi isə həmin təşəbbüslərin xoş məram daşıması olub.

*Səxavət HƏMİD*
*XQ*

### Ekspert rəyi



**İlqar VƏLİZADƏ,**
**politoloq**

**Rusiya Xarici İşlər nazirinin irəli sürdüyü təklif, əslində, maraqlıdır. Çünki Xəzəryanı dövlətlərin başçıları müntəzəm olaraq görüşürlər, müxtəlif aktual məsələləri müzakirə edirlər. Nazirlər arasında da Xəzər Şurası adlanan əməkdaşlıq formatı qurulsa, görüşlər müəyyən çərçivə halını ala və sistemli xarakter daşıya bilər. Məsələn, Mərkəzi Asiya dövlətlərinin başçıları arasında məşvərət xarakterli görüşlər keçirilir. Orada da heç bir katiblik yoxdur. Amma liderlər müntəzəm görüşür, müxtəlif məsələləri müzakirə edir, vacib qərarlar qəbul olunur. Növbəti görüşdə isə qərarların icrası istiqamətində görülən işləri təhlil edirlər. Xəzəryanı ölkələrin XİN başçıları arasında da görüşlərin müəyyən gündəlik əsasında və hər dəfə bir ölkədə keçirilməsi çox vacibdir.**

**Xüsusilə nəzərə almaq lazımdır ki, son illərdə Xəzər dənizi ilə bağlı ciddi proseslər yaşanır. Dənizin suyunun azalması dərin narahatlıq doğurur. Bu problemləri həll etmək üçün, əlbəttə, təxirəsalınmaz addımlar atılmalıdır. Ən azı bununla bağlı görüşlərin keçirilməsi və qərarların qəbulu önəmlidir.**

# Qərbi Azərbaycan əsilli rəssamların sərgisi

**Dekabrın 7-də Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına Sərgi Salonunda Qərbi Azərbaycan əsilli rəssamların əsərlərindən ibarət sərgi açılıb.**



Azərbaycan Rəssamlar İttifaqının və Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə keçirilən sərgidə Xalq rəssamları Hüseyn Əliyevin, Kamil Əliyevin, Arif Qazıyevin, İsmət Axundovun, Əməkdar rəssamlar Rza Avşarovun, İsa Məmmədovun, Nağdəli Xəlilovun, Sabir Hüseynovun, Saleh Məmmədovun, Akif Quliyevin, Xuday İbrahimovun, Pərvin Quliyevanın, Sevil Əhmədovanın, Əli İsmayılın, ümumilikdə, 25 müəllifin 40-dək rəngkarlıq və rəsm əseri nümayiş olunur.



Qonaqları salamlayan Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov sərginin keçirilməsinin böyük əhəmiyyətə malik olduğunu vurğulayıb.

Çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, Qərbi Azərbaycandan son 200 ildə deportasiya edilmiş, etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarına qayıtmaq hüququnun beynəlxalq səviyyədə tanıdılması böyük önəm daşıyır.

Qərbi Azərbaycan əsilli rəssamların əsərlərindən ibarət sərginin açılışında dövlət və hökumət nümayəndələri, Qərbi Azərbaycandan olan ziyalılar, elm və incəsənət xadimləri iştirak ediblər.

*XQ*

# Ədliyyə naziri Şabranda



**Dekabrın 7-də Ədliyyə naziri Fikrət Məmmədov Şabran rayonunda Şabran, Xaçmaz, Siyəzən və digər rayonlardan olan vətəndaşlarla görüşüb.**

Görüşdə vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib, Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin qayğıları ilə maraqlanılıb, qaldırılan məsələlərə dair aidiyyəti tapşırıqlar verilib.

Səfər çərçivəsində nazir yerli ədliyyə orqanlarına və məhkəməyə baş çəkərək onların iş şəraiti ilə tanış olub, işin daha səmərəli təşkili ilə bağlı tapşırıq və tövsiyələrini verib.

*XQ*

# Qarabağa sağlam ətraf mühit və minasız həyat





**Dekabrın 7-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı və ANAMA-nın tərəfdaşlığı ilə "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat" adlı beynəlxalq forum Ağdamda davam edib.**

Forum çərçivəsində Ağdam Konfrans Mərkəzində panel müzakirələri olub.

Vətəndaş cəmiyyəti təmsilçisi Orxan Amaşovun moderatorluğu ilə keçirilən müzakirələrdə ANAMA-nın şöbə müdiri Adil Aslanov, "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İB-nin sədri Hafiz Səfixanov, BMTİP eksperti Don Makdonald, siyasi analitik Hamdi Rifai, Türkiyənin Siyasət, İqtisadiyyat və Araşdırmalar Mərkəzinin eksperti Mustafa Caner, "Piyada Əleyhinə Minaların Aşkarlanması İnkişafı" İB-nin eksperti İtamar Levy, "Minadan Azad Sarayeva" layihəsinin rəhbəri, "Minaaxtaran itlər" Mərkəzinin direktor müavini Mariya Trlin, Humanitar Yardım Fondunun eksperti Mehmet Altıntaş, Mina Məsləhət qrupunun Azərbaycan üzrə direktoru Joanne La Terriere, UNICEF-in humanitar minatəmizləmə üzrə eksperti Tetiana Kazanzhy və digər ekspertlər minanın törətdiyi qorxulu fəsadlardan, ondan qorunma və maarifləndirmə yollarından bəhs ediblər.

Tədbirin sonunda forum iştirakçıları adından dünya ictimaiyyətinə müraciət səslənib.

*XQ*

# Baş nazirin müavini Çin şirkəti prezidenti ilə görüşüb



**Baş nazirin müavini Şahin Mustafayev dekabrın 7-də "China Energy International Group Co. Ltd" şirkətinin prezidenti Çiao Sübin ilə görüşüb.**

Görüşdə Azərbaycan-Çin dostluq və əməkdaşlıq əlaqələrinin siyasi, ticari-iqtisadi, qarşılıqlı investisiyalar, nəqliyyat-logistika, energetika, kənd təsərrüfatı, humanitar və bütün digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib, dövlətlərarası münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı bildirilib.

Azərbaycanın "yaşıl" enerji imkanlarının inkişaf etdirilməsi məqsədilə potensial layihələr müzakirə olunub, bu sahədə imzalanan əməkdaşlıq sənədlərinin əhəmiyyəti vurğulanaraq, görüləcək işlər və gələcək hədəflər nəzərdən keçirilib.

*XQ*

# BMU-da Heydər Əliyevin büstünün açılış mərasimi



**Bakı Mühəndislik Universitetində ümummilli lider Heydər Əliyevin büstünün açılış mərasimi və ulu öndərin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan təhsilinin inkişaf mərhələləri" mövzusunda konfrans keçirilib.**

Universitetin inzibati binasında ümummilli liderin büstünün təntənəli açılış mərasimi olub. Elm və təhsil naziri Emin Əmrullayev, BMU-nun rektoru



Yaqub Piriyev, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev və qonaqlar büstün qarşısına əklil və gül dəstələri qoyublar.

Büstün müəllifi, tanınmış heykəltəraş, Xalq rəssamı Natiq Əliyev dəyərli sənət əsəri ilə bağlı məlumat verib.

Sonra "Heydər Əliyev və Azərbaycan təhsilinin inkişaf mərhələləri" mövzusunda konfrans keçirilib. Ulu öndərin mənalı ömür yolu, zəngin fəaliyyəti ilə bağlı videoçarx nümayiş etdirilib.



Yaqub Piriyev Ümummilli liderin bənzərsiz həyat yolundan danışmış, BMU-da onun büstünün qoyulmasının böyük qürur olduğunu vurğulayaraq, bütövlükdə bu dəyərli sənət əsərinin ərsəyə gəlməsində əməyi keçən hər bir şəxsə, xüsusən professor Natiq Əliyevə dərin minnətdarlığını bildirib.

Emin Əmrullayev ulu öndərin ruhuna dərin ehtiramın rəmzi olaraq, BMU-da Heydər Əliyevin büstünün açılışını yüksək dəyərləndirib, bu addımın universitetdə çalışanlar üçün böyük məna kəsb etdiyini vurğulayıb.

*XQ*

# Moldovada Müslüm Maqomayevin barelyefi açılıb



**Moldovada Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində ölkəmizin Kişineudakı səfirliyinin önündəki bağçada dünyaşöhrətli müğənni Müslüm Maqomayev barelyefinin açılış mərasimi keçirilib.**

Barelyef Azərbaycan ilə Moldova arasında iqtisadi inkişaf üzrə hökumətlərarası komissiyanın həmsədrləri – Moldovanın infrastruktur və regional inkişaf naziri Andrey Spinunun və Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədovun, eləcə də Moldovanın mədəniyyət naziri Sergiu Prodanın iştirakı ilə açılıb.

Səfir Qüdsi Osmanov çıxışında bildirib ki, barelyef Moldovada Müslüm Maqomayevin xatirəsini əbədi olaraq yaşadacaq.

Moldovanın mədəniyyət naziri Serjiu Prodan Kişineuda tanınmış müğənni və bəstəkar Müslüm Maqomayevin barelyefinin açılışını mühüm mədəniyyət hadisəsi adlandırıb.

*XQ*

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 437** **Bakı şəhəri, 6 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 499 nömrəli Qərarı ilə təsdiq edilmiş "Reklam qurğularına Texniki Tələblər"də dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 499 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2218; 2018, № 7 (II kitab), maddə 1631; 2019, № 7, maddə 1322, № 12, maddə 2102; 2022, № 11, maddə 1347) ilə təsdiq edilmiş "Reklam qurğularına Texniki Tələblər"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 1.2-1-ci və 2.2-1-ci bəndlər əlavə edilsin:

"1.2-1. Bakı şəhərinin ərazisində olan binalarda yerləşdirilən reklam qurğularına dair xüsusi tələblər bu Texniki Tələblərin 3-1-ci hissəsi ilə müəyyən edilir.

2.2-1. Reklam qurğuları (reklam) tarix və mədəniyyət abidə-lərinin ərazilərində və mühafizə zonalarında, memarlıq abidələrinin (binalarının) fasadlarında (divarlarında, hasarlarında) və dam örtük-lərində "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 26.3-cü maddəsinin, həmçinin "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 7-ci hissəsinin tələbləri nəzərə alınmaqla yerləşdirilir.".

**2.** Aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Bakı şəhərinin ərazisində olan binalarda yerləşdirilən reklam qurğularına dair xüsusi tələblər

3-1.1. Bu Texniki Tələblərin 3-1-ci hissəsinin məqsədləri üçün binalar dedikdə birbaşa aid olduğu ticarət, ictimai iaşə, məişət və digər növ xidmətlərin göstərildiyi obyektlərin yerləşdiyi yaşayış və qeyri-yaşayış binaları, habelə onunla sıx bağlı və ya ona bitişik olan tikililər (çətirlər, tentlər, məhəccərlər və hasarlar) nəzərdə tutulur.

3-1.2. Bu Texniki Tələblərin 3.11-ci, 3.14-cü, 3.15-ci və 3.17-ci bəndləri ilə müəyyən edilmiş reklam qurğuları istisna olmaqla, Bakı şəhərinin ərazisində olan binalarda yalnız bu Texniki Tələblərin 3-1-ci hissəsində nəzərdə tutulmuş reklam qurğularının yerləşdirilməsinə yol verilir.

3-1.3. Reklam qurğularının yerləşmə yerlərində qaz, istilik, su (kanalizasiya) və elektrik təchizatı sistemlərinin elementlərinin olduğu halda qurğuların yerləşdirilməsi həmin sistemlərin təhlükəsizliyinin təmin edilməsi şərtilə həyata keçirilir.

3-1.4. Reklam qurğularının yerləşdirilməsi zamanı aşağıda-kılara yol verilmir:

3-1.4.1. reklam qurğularının bu Texniki Tələblərin 3-1-ci hissəsi ilə müəyyən edilmiş parametrlərinin (ölçülərinin), eləcə də yerləşdirilmə yerləri ilə bağlı müəyyən edilmiş tələblərin pozulmasına;

3-1.4.2. bu Texniki Tələblərin 3-1.5.1-ci, 3-1.5.6-cı, 3-1.7.1-ci və 3-1.9.1-ci yarımbəndlərində nəzərdə tutulan hallarda reklam qurğularının şaquli yerləşdirilməsinə;

3-1.4.3. bu Texniki Tələblərin 3-1.5.7-ci yarımbəndi ilə müəyyən edilmiş hal istisna olmaqla, reklam qurğularının binaların günlüklərində yerləşdirilməsinə;

3-1.4.4. reklam qurğusunun binanın fasadının tinlərində yerləşdirilməsinə;

3-1.4.5. reklam qurğusunun binanın fasadının memarlıq detallarında (o cümlədən, sütunlarda, ornamentlərdə, bəzəklərdə və s.) yerləşdirilməsinə;

3-1.4.6. reklam qurğusunun memorial lövhələrə, həmçinin memarlıq abidələrinin (binalarının) məlumat lövhələrinə 1 metrdən yaxın məsafədə yerləşdirilməsinə;

3-1.4.7. ünvan məlumatlarının yerləşdiyi lövhələrin üzərinin örtülməsinə;

3-1.4.8. fasaddakı bir reklam qurğusunun digərinin üzərində yerləşdirilməsinə;

3-1.4.9. bir kronşteyn panel qurğusunun digərinin üzərində yerləşdirilməsinə;

3-1.4.10. reklamın binanın fasadında dekorativ-bədii və (və ya) mətn təsvirinin bilavasitə çəkilməsi yolu ilə (boyama, yapışdırma və digər metodlarla) yerləşdirilməsinə;

3-1.4.11. reklam məqsədilə pəncərə və divar oyuqlarının, həmçinin onların çərçivələrinin (impostlarının) bağlanmasına, boyan-masına və dekorativ plyonkalarla örtülməsinə;

3-1.4.12. elektron daşıyıcının vitrin şüşəsinin bütün hündür-lüyü və (və ya) uzunluğu boyunca quraşdırılmasına;

3-1.4.13. reklam qurğusunun lociya, balkon və eyvanlarda yerləşdirilməsinə;

3-1.4.14. reklam qurğusunun məhəccərlər və hasarlar istisna olmaqla, digər çəpərləyici qurğularda (şlaqbaumlar, çəpərlər və s.) yerləşdirilməsinə;

3-1.4.15. memarlıq abidələrində (binalarında) eyni obyektə aid 1-dən çox fasad reklamının yerləşdirilməsinə;

3-1.4.16. memarlıq abidələrində (binalarında) yerləşdirilən fasad reklamlarında daxili işıqlandırmadan istifadə olunmasına;

3-1.4.17. memarlıq abidələrinin (binalarının) üzərində kronşteyn panel qurğusunun yerləşdirilməsinə.

3-1.5. Fasad reklamları bu Texniki Tələblərin 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş tələblərə uyğun yerləşdirilir. Fasad reklamları yerləşdirilərkən aşağıdakılara riayət olunmalıdır:

3-1.5.1. fasad reklamları hərflər, rəqəmlər, bədii-dekorativ elementlər (loqotiplər, nişanlar, simvollar və s.) şəklində olmaqla ticarət, ictimai iaşə, məişət və digər növ xidmət obyektlərinin birinci və ikinci mərtəbələrinin pəncərələri arasındakı mərkəzi sahədən aşağıda, giriş hissələrinin və ya pəncərələrinin (vitrinlərinin) yuxarısında, həmçinin obyektlərin pəncərələri arasındakı aralıq divarlarda yerləşdirilir. Binanın üzərində eyni zamanda bir neçə fasad reklamı yerləşdirildikdə, qeyd edilən reklam qurğuları vahid üfüqi xətt boyunca (eyni səviyyədə) bir hündürlük səviyyəsində olmalıdır (əlavə 1, şəkil 1);

3-1.5.2. fasad reklamları binanın çöl tərəfinin ölçülərinə uyğun olan sahəsi çərçivəsində fasadın memarlıq elementlərindən azad hamar hissələrində yerləşdirilir. Fasad reklamları bərkidici və (və ya) altlıq elementlərindən istifadə edilməklə yerləşdirilə bilər. Fasad reklamları, habelə onun bərkidici və altlıq elementləri ərazinin və binanın bədii-memarlıq üslubuna uyğun olmalıdır. Fasad reklamları tək qurğudan (vahid qurğu) və ya qarşılıqlı əlaqəli elementlərin əks olunduğu qurğulardan ibarətdir;

3-1.5.3. fasad reklamları binaların zirzəmi və ya kürsülük mərtəbəsinin giriş hissələrinin və ya pəncərələrinin yuxarısında yerləşdirilə bilər. Bu zaman reklam qurğusu bərkidildiyi yerdən 0,10 metrdən çox çıxıntı əmələ gətirməməlidir (əlavə 1, şəkil 2);

3-1.5.4. fasad reklamlarının ölçüləri (əlavə 1, şəkil 3):

1. hündürlüyünə görə - qurğunun frizdə yerləşdirilməsi istisna olmaqla 0,50 metrdən;

2. uzunluğuna görə - tək qurğu üçün 10 metrdən, lakin obyektin uzunluğunun 70 faizindən;

3. fasad reklamları qarşılıqlı əlaqəli elementlərdən istifadə edilməklə hazırlandıqda onun maksimal ölçüsü uzunluğuna görə 15 metrdən, lakin obyektin uzunluğunun 70 faizindən çox olmamalıdır;

3-1.5.5. bu Texniki Tələblərin 3-1.5.3-cü yarımbəndi istisna olmaqla, fasad reklamları bərkidildiyi yerdən 0,20 metrdən (memarlıq abidələrinə (binalarına) münasibətdə isə 0,10 metrdən) artıq çıxıntı əmələ gətirməməlidir (əlavə 1, şəkil 4);

3-1.5.6. frizdə yerləşdirilən fasad reklamında altlıqdan istifadə edildiyi halda, həmin altlıq frizin ölçülərinə uyğun yerləşdirilir. Reklam qurğusunun frizdə yerləşdirilməsi üçün istifadə edilən altlığın hündürlüyü frizin hündürlüyünə bərabər olmalıdır. Frizdəki fasad reklamları vahid üfüqi ox üzrə yerləşdirilməlidir. Bir frizdə bir neçə fasad reklamı yerləşdirildikdə onlar üçün vahid altlıq təşkil edilməlidir (əlavə 1, şəkil 5);

3-1.5.7. binanın günlüyündə frizin olduğu halda fasad reklamı frizin qabaritləri daxilində yerləşdirilə bilər (əlavə 1, şəkil 6);

3-1.5.8. fasad reklamları memarlıq abidələrinin (binalarının) üzərində həmin abidələrin (binaların) fasadlarının səthinə uyğun bərkidici elementlərdən istifadə edilməklə yerləşdirilməlidir;

3-1.5.9. fasad reklamları memarlıq abidələrinin (binalarının) kompozisiyasına, üslubuna, ornament və ya naxışlarına, o cümlədən fasadlarının dekorasiyasına xələl gətirmədən, rənglərin və rəng birləşmələrinin məhdud istifadəsi, fasadın rəngi ilə harmoniyası nəzərə alınmaqla yerləşdirilməlidir;

3-1.5.10. yerləşdirilmiş fasad reklamlarına əlavə olaraq binanın girişində (sağda və ya solda olmaqla), qapı oyuğundan yüksəkdə olmamaq şərtilə fasadın memarlıq elementlərindən azad hamar hissələrində bir ədəd reklam qurğusu yerləşdirilə bilər. Bu zaman reklam qurğusu hündürlüyünə görə 0,80 metrdən, uzunluğuna görə isə 0,60 metrdən çox olmamalıdır (əlavə 1, şəkil 7).

3-1.6. Vitrin üzərində reklam qurğuları bu Texniki Tələblərin 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş tələblərə uyğun yerləşdirilir. Vitrin üzərində reklam qurğuları yerləşdirilərkən aşağıdakılara riayət olunmalıdır:

3-1.6.1. vitrin üzərində reklam qurğusu vitrin şüşəsinin xarici və (və ya) daxili tərəfində yerləşdirilir;

3-1.6.2. vitrin üzərində reklam qurğusu hərflər, rəqəmlər, bədii-dekorativ elementlər (loqotiplər, nişanlar, simvollar və s.), təsvirlər şəklində və ya elektron daşıyıcılar vasitəsilə yerləşdirilir;

3-1.6.3. vitrin şüşəsində reklam səthinin sahəsi vitrinin ümumi sahəsinin 50 faizindən çox olmamalıdır. Vitrin üzərində reklam qurğusu bərkidici və (və ya) altlıq elementlərindən istifadə etməklə yerləşdirilə bilər (əlavə 2, şəkil 1);

3-1.6.4. vitrin şüşəsində yerləşdirilən reklam qurğusu çərçivələrin, impostlar olduqda onların sərhədləri daxilində yerləş-məlidir. Vitrin şüşəsinin xarici tərəfinə yerləşdirilən reklam qurğusu binanın fasadının müstəvisindən kənara çıxmamalı, reklam qurğusunun uzunluğu vitrin şüşəsinin uzunluğundan çox olmamalıdır. Vitrin çoxtərəfli formaya malik olduğu halda reklam qurğusu onun hər üzünə paralel şəkildə, konstruktiv elementlərinə (impostlarına) bərkidilmə mümkünlüyü təmin edilməklə yerləşdirilə bilər (əlavə 2, şəkil 2);

3-1.6.5. reklam qurğularının binaların pəncərələrində (pəncərə altlıqlarında) və qapılarının şüşələrində yerləşdirilməsi onların vitrinlərdə yerləşdirilməsi ilə bağlı müəyyən edilmiş tələblərə müvafiq olaraq həyata keçirilir.

3-1.7. Kronşteyn panel qurğuları bu Texniki Tələblərin 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş tələblərə uyğun yerləşdirilir. Kronşteyn panel qurğuları yerləşdirilərkən aşağıdakılara riayət olunmalıdır:

3-1.7.1. kronşteyn panel qurğusu birinci və ikinci mərtəbələrin pəncərələri arasındakı mərkəzi sahədən aşağıda yerləşdirilməli, eləcə də yer səviyyəsindən kronşteyn panel qurğusunun aşağı kənarınadək məsafə ən azı 2,20 metr olmalıdır. Kronşteyn panel qurğuları arasındakı məsafə 3 metrdən az ola bilməz. Binada eyni obyektə aid yalnız 1 kronşteyn panel qurğusu yerləşdirilə bilər. Binanın üzərində eyni zamanda bir neçə kronşteyn panel qurğusu quraşdırıldıqda, qeyd edilən reklam qurğuları vahid üfüqi xətt boyunca bir hündürlük səviyyəsində (reklam qurğusunun aşağı kənarlarına münasibətdə) olmalıdır (əlavə 3, şəkil 1);

3-1.7.2. kronşteyn panel qurğusunun bərkidici elementləri binanın fasadının müstəvisindən 0,20 metrdən çox məsafədə, onun üz tərəfinin kənar nöqtəsi isə fasadın müstəvisindən 1 metrdən çox məsafədə yerləşməməlidir. Kronşteyn panel qurğusunun hündürlüyü 1 metrdən, eni isə 0,20 metrdən çox olmamalıdır (əlavə 3, şəkil 2);

3-1.7.3. tarix və mədəniyyət abidələrinin mühafizə zonala-rındakı binalarda yerləşdirilən kronşteyn panel qurğusu hündürlüyünə və uzunluğuna görə 0,50 metrdən çox olmamalıdır (əlavə 3, şəkil 3);

3-1.7.4. kronşteyn panel qurğusu tarix və mədəniyyət abidələrinin mühafizə zonalarındakı binalarda binanın bədii memarlıq üslubuna uyğun dizayn edildikdə yerləşdirilə bilər.

3-1.8. Asma panel qurğuları bu Texniki Tələblərin 4 nömrəli əlavəsi ilə müəyyən edilmiş tələblərə uyğun yerləşdirilir. Asma panel qurğuları yerləşdirilərkən aşağıdakılara riayət olunmalıdır:

3-1.8.1. asma panel reklam qurğusu piyadaların qalereya məkanında, yerləşdirmə yerinin estetik görkəminə və ölçülərinə uyğun olaraq yerləşdirilir;

3-1.8.2. yer səviyyəsindən asma panel qurğusunun aşağı kənarınadək məsafə 2,5 metrdən az olmamalıdır;

3-1.8.3. asma panel reklam qurğusunun hündürlüyü 0,75 metrdən çox olmamalıdır.

3-1.9. Binalarda digər reklam qurğuları bu Texniki Tələblərin 5 nömrəli əlavəsi ilə müəyyən edilmiş tələblərə uyğun yerləşdirilir. Binalarda digər reklam qurğuları yerləşdirilərkən aşağıdakılara riayət olunmalıdır:

3-1.9.1. binaların vitrinlərinin, qapı və pəncərələrinin üzərinə quraşdırılan tentlərə, o cümlədən stasionar ticarət, ictimai iaşə, məişət və digər növ xidmət obyektlərinə bitişik sahələrdə istifadə edilən çətirlərə reklamların yerləşdirilməsinə yol verilir. Bu zaman reklamın hündürlüyü 0,30 metrdən çox olmamalıdır. Tent və çətirlərdə reklamlar vahid üfüqi ox üzərində yerləşməlidir (əlavə 5, şəkil 1);

3-1.9.2. zirzəmi mərtəbəsinin giriş hissələrinin və ya pəncərələrinin yuxarısında reklam yerləşdirmək mümkün olmadıqda və ya yerləşdirilmiş reklamlar qarşıdan baxılarkən görünmədikdə məhəccərdə reklam yerləşdirmək mümkündür. Məhəccər metal konstruksiya şəklində və ya memarlıq elementlərindən ibarət olduqda onun tutacaq hissəsi istisna olmaqla, səthində reklam qurğusunun yerləşdirilməsinə yol verilmir. Məhəccərin tutacaq hissəsində quraşdırılan reklam qurğusunun reklam yerləşdirilən səthi 0,50 x 0,50 metrədək, yer səviyyəsindən yuxarı kənarınadək məsafə maksimum 1,50 metrədək təşkil edir, digər hallarda isə reklam məhəccərin ümumi ölçüsünün 50 faizindən çox olmayaraq tam mərkəzdə yerləşdirilir (əlavə 5, şəkil 2).

3-1.10. Bakı şəhərinin ərazisində olan binalarda elektron ekranın, divar panosunun (brandmauer), binaların damında hərflər və loqotiplər şəklində yerləşdirilən, habelə fərdi layihələr əsasında hazırlanmış reklam qurğularının yerləşdirilməsi xüsusiyyətləri bu Texniki Tələblərin müvafiq olaraq 3.11-ci, 3.14-cü, 3.15-ci və 3.17-ci bəndləri ilə tənzimlənir.".

**3.** "Reklam qurğularına Texniki Tələblər"in 3-1-ci hissəsinin müddəaları bu Qərar qüvvəyə mindiyi tarixdə müddəti bitməmiş açıq məkanda reklam yerləşdirilməsinə verilən icazə əsasında Bakı şəhərinin ərazisində olan binalarda yerləşdirilən reklam qurğularına şamil olunmur.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 438** **Bakı şəhəri, 6 dekabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının" təsdiq olunması haqqında" 1994-cü il 15 yanvar tarixli 10 nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" 2001-ci il 7 noyabr tarixli 179 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 910-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respub-likası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 619 nömrəli, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 27 iyul tarixli 168 nömrəli, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 30 avqust tarixli 188 nömrəli, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" 2012-ci il 13 fevral tarixli 593 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2239 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 191, № 6, maddə 388, № 8, maddə 534; 2002, № 3, maddə 148, № 4 (II kitab), maddə 199; 2003, № 6, maddə 342; 2006, № 5, maddə 474, № 9, maddələr 819, 830; 2008, № 2, maddə 130; 2009, № 7, maddə 604; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1356; 2016, № 4, maddə 824, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 2, maddə 306, № 4, maddə 610, № 5, maddə 994; 2019, № 9, maddə 1552; 2020, № 10, maddə 1295, № 11, maddə 1397; 2021, № 3, maddə 275, № 4, maddə 404, № 7, maddələr 871, 875, № 10, maddə 1164, № 12, maddələr 1518, 1535; 2022, № 1, maddə 74, № 8, maddə 974, № 11, maddə 1349; 2023, № 3, maddə 419) ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın 2.1.6-cı yarımbəndindən ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın.

2. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 719; 2017, № 12 (II kitab), maddə 2514; 2020, № 4, maddə 480, № 8, maddə 1122; 2021, № 1, maddə 97; 2022, № 1, maddə 71, № 6, maddə 668, № 12, maddə 1552) 2-ci hissəsinin ikinci abzasından ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında (bundan sonra - AMEA)" və "və ya AMEA-nın" sözləri, üçüncü abzasından "və AMEA-nı" və "və ya AMEA-nın" sözləri çıxarılsın.

3. Bu Qərar 2023-cü il sentyabrın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Ulu öndər və Azərbaycanda insan haqlarının qorunması



**"Four Seasons" otelində ölkəmizdə "Heydər Əliyev İli" çərçivəsində Hüquq və İnsan Haqları İnstitutunun 25 illik yubileyinə və Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş toplantı keçirildi.**

Məclisin əvvəlində institutun əməkdaşlarının hüququn müxtəlif sahələrinə dair yeni çapdan çıxmış kitablarının təqdimatı oldu.

Sonra Hüquq və İnsan Haqları İnstitutu İdarə Heyətinin sədri Məhəmməd Quluzadə rəhbərlik etdiyi kollektivin 25 il ərzində həyata keçirdiyi işlər barədə ətraflı məlumat verdi. Qeyd olundu ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan bu elm ocağında ötən müddət ərzində 228 elmi iş müdafiə olunub 700-dən çox tələbə və məzun təcrübə keçib, 1500-ə yaxın kitab, dərslik və məqalə dərc edilib. Bundan əlavə, 150-dən çox qanuna təklif və rəy hazırlanıb, yüzlərlə insan təlimlərə cəlb edilib. Yeni yaradılan "Ulu öndər Heydər Əliyev adına Virtual Hüquq Kitabxanası"nda istifadəçilər tərəfindən 60 mindən çox yükləmə qeydə alınıb.

Sonra Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli kollektivi yubiley münasibətilə təbrik etdi. O, bildirdi ki, Heydər Əliyev İli çərçivəsində institutun 25 illik yubileyinin və Beynəlxalq İnsan Hüquqları Gününün qeyd edilməsi təsadüfi deyil. Ulu öndər həmişə Azərbaycan xalqının, ümumilikdə, dünya azərbaycanlılarının hüquqlarının qorunması istiqamətində fəaliyyət göstərib. Böyük rəhbər həmişə demokratiya və qanunun aliliyi prinsipinə hörmətlə yanaşıb. Təəssüf ki, 1987–1993-cü illərdə xalqımızın həm fərdi, həm də milli hüquqları sistemli şəkildə pozulmuşdur.

1993-cü ildə Heydər Əliyevin Azərbaycanda hakimiyyətə yenidən qayıdışından sonra insan hüquqlarına önəm verməyə başlandı. Mətbuatda senzura ləğv edildi, ölüm cəzasının ləğvi ilə bağlı tədbirlər görüldü. İnsan hüquqları sahəsində Azərbaycan BMT konvensiyalarına qoşuldu və 2001-ci ildə ölkəmiz Avropa Şurasına tamhüquqlu üzv qəbul olundu. Heydər Əliyev çağdaş tariximizin ən böyük hüquq müdafiəçisi kimi xalqımızın yaddaşında əbədi yaşayacaq.

Prezident Administrasiyasının sektor müdirləri Rüstəm Qasımov və Həbib Abdullayev kollektivin ölkəmizdə insan haqları anlayışının geniş yayılmasında, bu mövzunun elmi baxımdan araşdırılmasında institun xidmətlərini qeyd etdilər, kollektivə yeni uğurlar arzuladılar.

BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsinin səlahiyyətlərini icra edən xanım Alessandra Rokkasalvo insan hüquqlarının təmsil etdiyi qurumun institutla səmərəli əməkdaşlığından söz açdı, qarşıdakı fəaliyyət istiqamətlərini vurğuladı.

Milli Məclisin deputatı hüquq elmləri doktoru Nizami Səfərovun moderatorluğu ilə "Azərbaycanda hüquq elminin mövcud problemləri, yeni prioritetləri və perspektivləri" mövzusunda aparılan müzakirələrdə hüquqşünas alimlər və dövlət qurumlarının əməkdaşları sahə elminin inkişafı ilə bağlı təkliflərini bildirdilər, problemlərdən və önəmli vəzifələrdən danışdılar. Onlar qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qayıdışını təmin etmək üçün hüquqi bazanın yaradılmasının vacibliyini söylədilər.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Böyük Britaniya Azərbaycanda ən böyük investordur

## Son 28 ildə Birləşmiş Krallıq ölkə iqtisadiyyatına 83 milyard dollar sərmayə qoyub



(əvvəli 1-ci səhifədə)

Böyük Britaniyanın Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğunu vurğulayan nazir qeyd edib ki, 2022-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 2021-ci illə müqayisədə 55,1 faiz artaraq 1 milyard dollar təşkil edib. 2023-cü ilin ilk 10 ayında isə bu göstərici 734 milyon dollar olub. Xarici ticarət əlaqələrinin göstəricisi olan bu rəqəmlərin heç də mövcud potensialı əks etdirmədiyini diqqətə çatdıran nazir, həmçinin iki ölkə arasında ticarət dövriyyəsinin həcminin artırılması üçün geniş imkanların olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə investisiya mühitinin davamlı şəkildə yaxşılaşdığını və bunun da xarici investorların marağına səbəb olduğunu bildirən P.Şahbazov onu da deyib ki, hazırda Azərbaycanın sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və xidmət sahələrində 662 Britaniya şirkəti fəaliyyət göstərir. Nazir Böyük Britaniya ilə əlaqələrin prioritet istiqamətlərindən olan enerji sektorunda uzunmüddətli və səmərəli əməkdaşlığın qlobal enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynadığını xüsusi qeyd edib və BP-nin Azərbaycandakı fəaliyyətini bu baxımdan böyük uğur hekayəsi kimi dəyərləndirib. "Bu sahədə təkmilləşdirmə üçün geniş imkanlar var və bununla bağlı Ələt Azad İqtisadi Zonasının təklif etdiyi imkanları xüsusi qeyd etmək istərdim" – deyə nazir əlavə edib.

Ölkələrimiz arasında investisiya mübadiləsinin mövcud vəziyyətindən bəhs edən energetika naziri bildirib ki, Birləşmiş Krallıq Azərbaycanın ən böyük xarici investorudur. Qeyd olunub ki, 1995-ci ildən 2023-cü ilin 6 ayına qədər qədər Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığından təkcə Azərbaycanın enerji sektoruna 33 milyard dollar dəyərində investisiya yatırılıb.

Energetika nazirinin sözlərinə görə, Azərbaycandan Birləşmiş Krallığa 2 milyard ABŞ dolları dəyərində investisiya yatırılıb. Böyük Britaniyadan ölkəmizə idxal olunan əsas malların strukturuna gəldikdə isə, bunlar, əsasən, avadanlıq, nəqliyyat vasitələri, qara metallar, əczaçılıq və kimya məhsullarıdır. Ölkəmiz isə Böyük Britaniyaya, əsasən, xam neft, gübrə və müxtəlif avadanlıqlar ixrac edir.

Son illər ölkələrimiz arasında ənənəvi enerji ilə yanaşı, bərpaolunan enerji sahəsində də əlaqələrin genişləndirildiyini bildirən Pərviz Şahbazov Azərbaycanın Energetika Nazirliyi ilə Böyük Britaniyanın Beynəlxalq Ticarət Departamenti arasında "Təmiz enerjiyə keçid sahəsində əməkdaşlığa dair 2021-ci ildə imzalanmış Anlaşma Memorandumu"nun bu kontekstdə böyük əhəmiyyət kəsb etdiyini söyləyib. Qeyd olunub ki, memorandumun şərtlərinin həyata keçirilməsi üçün işçi qrupu yaradılıb, digər sahələrlə yanaşı, enerji səmərəliliyi və bərpaolunan enerji, o cümlədən dəniz küləyi və hidrogen sahələrində məlumat və təcrübə mübadiləsi məqsədilə müntəzəm seminar və vebinarlar təşkil edilir.

Nazir daha sonra bildirib ki, hazırda Böyük Britaniya şirkətlərinin 4 layihədə iştirak etdiyi işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işləri tərəfdaşlığımızın əhatə dairəsinin və miqyasının genişlənməsinə əlverişli şərait yaradır: "Biz Böyük Britaniyanın bu ərazilərdə minaların təmizlənməsi ilə bağlı dəyərli töhfələrini xüsusilə yüksək qiymətləndiririk. Böyük Britaniyanın itkin düşmüş şəxslərin müəyyən edilməsi sahəsində böyük təcrübəsini nəzərə alaraq, biz bu sahədə də əməkdaşlığın qurulmasını alqışlayırıq, – deyə o, əlavə edib.

Energetika naziri, həmçinin vurğulayıb ki, ölkələrimiz arasında qarşılıqlı əməkdaşlıq siyasi, iqtisadi, humanitar sahədə zənginləşərək güclənir ki, bu da əlaqələrin genişləndirilməsi üçün yeni imkanlar açacaq.

Böyük Britaniyanın ixrac üzrə naziri Lord Offord isə çıxışında ölkəsinin Azərbaycanın müstəqillik tarixində ən böyük investor olduğunu vurğulayıb. Fikrini əsaslandıran nazir deyib ki, bugünə qədər Böyük Britaniya Azərbaycan iqtisadiyyatına 83 milyard ABŞ dolları sərmayə yatırıb. Bununla belə, nazir Böyük Britaniyanın növbəti 30 ildə Azərbaycana investisiya qoyuluşunu artırmağı və daha yüksək səviyyəyə çatdırmağı planlaşdırdığını diqqətə çatdırıb.

Britaniyalı nazir, həmçinin ölkəsinin texnologiya və kibertəhlükəsizlik sahəsində Azərbaycanla əlaqələri genişləndirmək niyyətində olduğunu bildirib. "Bizim texnologiya şirkətləri bu il Bakıda keçirilmiş astronavtika və innovasiya sammitlərində iştirak edib. Fevralda isə Bakıda kibertəhlükəsizlik sammiti keçirməyi və bütün startapları, həmçinin texnologiya şirkətlərini ora toplamağı düşünürük", – deyə o qeyd edib. Bununla yanaşı, Azərbaycanın regionda Şərqlə Qərb arasında hab rolunu oynadığını vurğulayan Lord Offord ölkəsinin bu potensialdan istifadə etmək istəyini dilə gətirib.

İclasda komissiyanın 5-ci iclasından ötən dövr ərzində görülmüş işlərə nəzər salınıb, iki ölkə arasında biznes mühiti, enerji keçidi, səhiyyə, infrastruktur, informasiya-kommunikasiya texnologiyaları, kibertəhlükəsizlik, rəqəmsal iqtisadiyyat, mina fəaliyyəti və itkin düşmüş şəxslərin müəyyən edilməsi, təhsil, kənd təsərrüfatı, qida təhlükəsizliyi, ətraf mühit və iqlim dəyişikliyi sahələrində əməkdaşlığa dair müzakirələr aparılıb.

Tədbirin sonunda Azərbaycan – Böyük Britaniya Hökumətlərarası Komissiyanın 6-cı iclasının yekununa dair Protokol və Azərbaycanın "Bridge" şirkətlər qrupu ilə Britaniyanın "Concrete Canvas Limited" şirkəti arasında eksklüziv distribütorluq müqaviləsi imzalanıb.

**Mirbağır YAQUBZADƏ**
**XQ**



# Pirallahıda yeni dərman zavodu yaradılır

**Dekabrın 7-də Pirallahı Sənaye Parkında "Gen Pharma Caucasus Manufacturing Operations" MMC-nin dərman vasitələrinin istehsalı müəssisəsinin təməlqoyma mərasimi keçirilib.**

Tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov, "Gen Pharma Caucasus Manufacturing Operations" şirkətinin rəhbəri Abidin Gülmüş, eləcə də rəsmi şəxslər iştirak ediblər. Qeyd olunub ki, 2023-cü il iyulun 31-də Azərbaycan İnvestisiya Şirkəti, Türkiyənin "GEN İlaç ve Sağlık Ürünleri Sanayi ve Ticaret A.Ş" şirkəti və "SİA Pharmaceutical" MMC arasında Pirallahı Sənaye Parkında əczaçılıq zavodunun yaradılması üzrə tərəfdaşlıq və birgə iştirak müqaviləsi imzalanıb.

Ötən müddətdə görülən işlərin nəticəsi olaraq 7,8 hektar ərazidə təməli qoyulan müəssisədə gələcəkdə Türkiyənin qabaqcıl texnologiyalarının tətbiqi ilə yüksək keyfiyyətli 42 adda müxtəlif doza və qablaşdırmada dərman məhsulları istehsal olunacaq. İnvestisiya dəyəri 59,3 milyon manat təşkil edən müəssisədə 165 nəfər daimi işlə təmin ediləcək.

Zavodun fəaliyyətə başlamasından sonra ölkədə bir sıra əczaçılıq məhsullarına tələbat yerli istehsal hesabına ödəniləcək, idxaldan asılılıq azaldılacaq. İllik istehsal gücü 50 milyon qutu nəzərdə tutulan zavodda istehsal edilən məhsulların daxili bazara satılması ilə yanaşı, "Made in Azerbaijan" brendi ilə region ölkələrinə də ixracı planlaşdırılır.

**XQ**

# Füzulinin kəndlərinə mavi yanacaq verilir



**"Azəriqaz" İstehsalat Birliyindən aldığımız məlumatda Füzuli rayonunun işğaldan azad olunan Dövlətyarlı və Dədəli kəndlərinin təbii qazla təmin edilməsi üçün daşıyıcı qaz kəmərlərinin çəkildiyi bildirilir.**

Dövlətyarlı kəndinin daşıyıcı qaz kəmərinin tikintisi üçün xüsusi izolyasiya olunmuş polad boru kəməri Quruçay çayının aşağı hissəsindən keçirilərək digər daşıyıcı kəmərə birləşdiriləcək.

Dədəli kəndinə çəkilən daşıyıcı qaz kəmərinin keçəcəyi dəhliz boyunca ərazilər minalardan təmizləndikdən sonra tikinti işlərinə başlanılıb. Kəndə daşıyıcı qaz kəmərinin çəkilişi üçün ümumi uzunluğu 14 min 500 metrədək müxtəlif diametrli polietilen borulardan istifadə olunub. İşlərin yaxın günlərdə yekunlaşacağı nəzərdə tutulub.

**XQ**

# Ölkəmiz qlobal ərzaq təhlükəsizliyi sistemində

## Hazırda aqrar sektorda 21 beynəlxalq layihə həyata keçirilir

(əvvəli 1-ci səhifədə)

Nazirliyin bununla bağlı yaydığı məlumatda isə deyilir ki, nazir Mikayıl Cabbarov Azərbaycan və FAO arasında səmərəli tərəfdaşlığın iqtisadiyyatın bir sıra sahələrinə, o cümlədən kənd təsərrüfatının və qida təhlükəsizliyinin gücləndirilməsinə, təbii resursların səmərəli idarə edilməsinə töhfə verdiyini vurğulayıb. O qeyd edib ki, qurumla birgə həyata keçirilən layihələr kənd yerlərinə sərmayə qoyuluşu üçün əlverişli şəraitin yaradılmasına, aqrar məşğulluğun artmasına təkan verib.

Xatırladaq ki, Azərbaycan 1995-ci il oktyabrın 20-də bu təşkilata üzv qəbul edilib. BMT-nin ixtisaslaşmış qurumu olan FAO ölkəmizdə milli, regional və qlobal səciyyəli layihələrin həyata keçirilməsini daim diqqətdə saxlayıb. Həmin layihələr isə əsasən, kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, potensialın artırılması, resursların idarə edilməsi, heyvan və bitki xəstəliklərinə qarşı mübarizə, təchizat və digər müvafiq sahələrdə texniki yardımları nəzərdə tutub.

Qurumun layihələri barədə isə onu qeyd edək ki, irəli sürülən təşəbbüslər Azərbaycan hökumətinin prioritetləşdirilmiş ehtiyaclarından irəli gələn texniki əməkdaşlıq proqramlarına əsaslanıb. Bu zaman respublikamızın aqrar sektorunda məhsuldarlığın artırılması məqsədilə layihələrinin icrası, habelə kənd təsərrüfatında islahatların aparılması və sürətləndirilməsi, ölkədə ərzaq təhlükəsizliyi ilə bağlı bir çox çətinliklərin müsbət həlli diqqət mərkəzində saxlanılıb. Həmçinin qida məhsullarının və tullantıların idarə olunması sahəsində təşəbbüslərin gerçəkləşməsinə mühüm önəm verilib. Bununla bağlı indiyədək sözügedən istiqamətlərdə 60-dan yuxarı layihə reallaşdırılıb, xüsusən də ölkənin bölgələrində kənd təsərrüfatı mühiti, o cümlədən, qida təhlükəsizliyi yaxşılaşdırılıb.

Hazırda FAO tərəfindən Azərbaycanda 21 layihə həyata keçirilir. Ölkəmizdə milli qida təhlükəsizliyi sistemlərinin və regional əməkdaşlığın, kənd təsərrüfatının, xüsusilə heyvandarlıq və fındıqçılığın inkişafı, aqrar sahədə su ehtiyatlarının idarə edilməsinin təkmilləşdirilməsi və digər layihələr bu baxımdan maraq doğurur.

Cari ilin sonunadək FAO ilə Azərbaycan arasında əməkdaşlığın ikinci mərhələsi üzrə saziş imzalanacağı nəzərdə tutulur. Bu məqsədlə 2025-ci ilədək əməkdaşlıq çərçivəsində 9 prioritet istiqamət üzrə layihələr müəyyənləşdirilir, Azərbaycan hökuməti ilə kənd təsərrüfatı sahəsinin prioritet inkişaf istiqamətləri üzrə əməkdaşlığın gələcəkdə də davam etdirilməsi qarşıya mühüm vəzifə kimi qoyulur. Bu məqamda xatırlatmaq yerinə düşər ki, Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlətimizin başçısı tərəfindən Hökumət qarşısında strateji vəzifə kimi qoyulub. Elə buna görə də 2024-cü ilin dövlət büdcəsində ərzaq təhlükəsizliyi tədbirlərinin reallaşdırılması üçün 500 milyon manatdan çox vəsait nəzərdə tutulub.

Ölkədə yerli istehsalın özünütəminetmədə rolunun artırılması ilə bağlı layihələr davamlı olaraq icra olunur. Bu baxımdan ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması prioritet istiqamətlərdən biridir. İstehsal potensialının artması və



qlobal dəyər zəncirinə inteqrasiyanın güclənməsi hesabına 2003–2022-ci illər ərzində kənd təsərrüfatı məhsulları ixracının həcmi 6,9 dəfə artıb.

Həmçinin torpaq-iqlim potensialından və su ehtiyatlarından daha səmərəli istifadəni stimullaşdırmaq, ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəltmək üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il iyulun 9-da imzaladığı "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanla yeni dəstək mexanizmi yaradılıb. Bu mexanizmə görə, artıq bu ildən pivot suvarma tətbiq edilməklə istehsal olunaraq Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya görə məhsul subsidiyası da ödənilir.

Ölkədə aqrar sahənin inkişafı ilə bağlı aparılan ardıcıl və sistemli islahatların davamı olaraq dayanıqlı inkişaf prinsiplərinə əsaslanan, ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən, ixrac potensialının artırılmasına və kənd yerlərində rifahın yüksəldilməsinə töhfə verən rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesinin formalaşdırılması ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Bu isə kənd təsərrüfatının uzunmüddətli və dayanıqlı inkişafını, ölkəmizin iqtisadi gücünün daha da artmasını, insanların rifahının yüksəlməsini şərtləndirir.

FAO əməkdaşlığı fəaliyyətində aqrar sektorun rəqəmlaşma prinsipləri əsasında inkişafına xüsusi önəm verir. Azərbaycanın işğaldan azad edilən ərazilərində–Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatının ən yaxşı texnologiya və təcrübələrini özündə birləşdirən "ağıllı kənd" konsepsiyası əsasında bərpası da bu beynəlxalq təşkilatın müxtəlif ölkələrdə kəndlərin rəqəmsallaşma yolu ilə gələcəkdə "ağıllı kənd"ə çevrilməsi planına uyğun gəlir.

Ümumiyyətlə, respublikamızın aqrar sektorunun inkişafında, kənd təsərrüfatında islahatların uğurla aparılmasında rəqəmsallaşmanın, innovativ idarəetmə sistemlərinə keçidin təmin olunması vacib şərtlərindən biridir. Bu baxımından ölkəmizdə "Elektron kənd təsərrüfatı" İnformasiya Sisteminin (EKTİS) yaradılması xüsusi önəm daşıyır. Bu sistemin qurulmasını kənd təsərrüfatının rəqəmsallaşdırılması yönündə son dövrlərdə atılan ən zəruri və əhəmiyyətli addım hesab etmək olar. EKTİS kənd təsərrüfatı sahəsi üzrə geniş əhatəli informasiya bazasının qurulmasına zəmin yaradan vahid sistem, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi tədbirlərinin bütün mərhələləri ilə bağlı biznes proseslərini əhatə edən şəffaf və operativ idarəetmə strukturudur.

Hazırda bu sistem üzərindən 600 mindən çox subyektin müvafiq dövlət xidmətlərinə elektron qaydada birbaşa əlçatanlığı təmin edilib. EKTİS bu gün subsidiya, təchizat, tədarük və digər sahələrdə fəaliyyətin idarəedilməsində əsas istirakçıdır və elektron qaydada informasiya-məsləhət xidmətinin göstərilməsini təmin edə bilir.

**Vaqif BAYRAMOV**
**XQ**

# Naxçıvanda Qərbi Azərbaycana qayıdış hərəkatına elmi-mədəni dəstək

**Xəbər verdiyimiz kimi, bu yaxınlarda Naxçıvan Dövlət Universitetinin təşəbbüsü ilə bu il noyabrın 23–24-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı və qardaş Türkiyədən 20-dən çox qurumun tərəfdaşlığı ilə ölkmizdə ilk dəfə olaraq "Qərbi Azərbaycana qayıdış" festival-konqresi keçirildi.**



***Müsahibimiz bu möhtəşəm vətənpərvərlik aksiyasının keçirildiyi əsas mərkəzlərdən biri olmuş Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev söhbətə festival-konqresin məqsəd və məramından söz açmaqla başladı:***

– "Qərbi Azərbaycana qayıdış" festival-konqresin keçirilməsində əsas məqsəd tarixi ədalətin bərpa edilməsi yolunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yurd-yuvasından didərgin, qaçqın düşmüş azərbaycanlıların tarixi hüquqlarının bərpasına istiqamətlənmiş siyasətin elmi əsaslarla həm yerli, həm də beynəlxalq səviyyədə işıqlandırılmasına nail olmaq idi. Hədəf həm də ölkənin akademiya, müxtəlif universitet və elmi-tədqiqat institutlarında, eyni zamanda, qardaş Türkiyənin elm-təhsil mərkəzlərində fəaliyyət göstərən araşdırmaçı və mütəxəssisləri bir araya gətirmək, onların Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yenilikləri dinləmək, fikir mübadiləsi aparmaq idi. Bütün bunlar isə Ermənistan Respublikasının inzibati sərhədləri daxilindəki qədim yurd yerlərimiz olan Qərbi Azərbaycan torpaqlarında xalqımızın min illərlə yaratdığı mədəniyyəti təbliğ etməyə, Qərbi Azərbaycana qayıdış prosesinə elm və təhsil ictimaiyyətinin dəstəyini ifadə etməyə yönəlmişdi.

Naxçıvan Dövlət Universitetində "Qərbi Azərbaycana qayıdış" festival-konqresin Əsasnaməsi hazırlanmış, 36 nəfərlik Elmi Komitə, 45 nəfərdən ibarət Təşkilat Komitəsi, rəsmi saytı və loqosu yaradılmışdı. Festival-konqresdə əslən Qərbi Azərbaycandan olan ziyalılar və qaçqınlar, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin müəllim və tələbələri, eyni zamanda, Qərbi Azərbaycan İcmasının, Bakı Dövlət, Pedaqoji, İqtisad, Memarlıq və İnşaat, Texniki universitetlərin, Ali Neft Məktəbinin, AMEA Naxçıvan Bölməsinin, AMEA Tarix İnstitutunun, Vəkillər Kollegiyası Akademiyasının, eləcə də qardaş Türkiyədən Ankara, Hacəttəpə, Qazi, Atatürk, Qars Qafqaz və İğdır universitetlərinin rəhbərləri və geniş tərkibdə heyətləri təmsil olunmuşdu.

Festival-konqresin təşkilində Naxçıvan Muxtar Respublikasının şəhər və rayon icra hakimiyyətləri, Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi, Yazıçılar və Rəssamlar birlikləri iştirak edirdi. Azərbaycanın və Türkiyə Respublikasının bir sıra aparıcı universitetlərinin rektorları, millət vəkilləri, akademiklər, incəsənət xadimləri, dövlət və hökumət nümayəndələri də aksiyada fəallıq göstərdilər.

***– Festival-konqresin açılışı və keçirilən tədbirlər ölkəmizdə və xaricdə böyük maraqla izlənildi, bu tədbirlər Qərbi Azərbaycana qayıdış hərəkatına irimiqyaslı və elmi-mədəni dəstək kimi dəyərləndirildi.***

– Təşkilat Komitəsinin hazırladığı rəngarəng tədbirlər də hərəkata kütləvi dəstəyi təmin etməyə yönəlmişdi. "Qərbi Azərbaycana qayıdış" festival-konqresində kulinariya sərgisi, rəsm əsərlərinin sərgisi, milli geyim sərgisi, məişət avadanlıqlarının sərgisi, Qərbi Azərbaycana həsr olunmuş film nümayişləri, kitab təqdimatları, ustad dərsləri, xalq oyunları, kompozisiyalar, konsert proqramları və konqres təşkil edilmişdi. Rəsmi açılış mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun prorektoru, professor Mahirə Hüseynovanın çıxışları dinlənilmişdir.

Mərasimdə Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının bakalavr və magistratura üzrə təhsil alan tələbələri tərəfindən tədbirin əsas qayəsini özündə əks etdirən "Sevin Azərbaycanı" adlı maraqlı tamaşa-kompozisiya təqdim olunmuşdur. Bədii hissədə Naxçıvan Dövlət Universitetinin xor kollektivinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir. Universitetin "Muğam üçlüyü"nün ifasında "Zəngəzurum" muğamı, rəqs qrupunun ifasında "Azərbaycan suitası", Aşıqlar ansamblının ifasında "Baş müxəmməs", "Naxçıvanqala" ritm qrupunun ifasında "Qarabağ" kompozisiyası nümayiş olunmuşdur. Naxçıvan Dövlət Universitetinin yeni yaradılmış 56 nəfərdən ibarət "Xalq çalğı alətləri orkestri" və 17 nəfərdən ibarət "Buta" instrumental ansamblının ifalarında Qərbi

Azərbaycana xas olan musiqi nömrələri təqdim olunmuşdur. Bundan əlavə, ölkənin tanınmış musiqi xadimləri – xalq artistləri Ağaverdi Paşayev, Gülyanaq Məmmədova, Nurəddin Mehdixanlı, Əməkdar artistlər Elnur Zeynalov və Nuriyyə Hüseynova da konserdə iştirak etmişdir.



***– Kənardan görünən ümumi mənzərə belə idi: Qərbi Azərbaycan dəyərlərini nümayiş etdirən sərgilər, bədii hissələrdə bu mədəni irsin müxtəlif formalarda təzahür etdirilməsi, elmi məruzələr – bütün bunlar bir-birini tamamlayaraq təsirli bir mənzərə yaradırdı.***

– Açılış tədbirindən sonra "Dövlət Qonaq Evi"ndə Universitetin Texnologiya Mərkəzi tərəfindən Qərbi Azərbaycan mətbəxinə məxsus olan kulinariya sərgisi keçirilmiş, piştaxta və stollara 59 çeşid yemək, 44 çeşid meyvə və meyvə qurusu, 30 adda müalicəvi bitkilər, 94 növ mürəbbə, 12 adda bitki çayı, 13 növ şirniyyat çıxarılmışdır. Heydər Əliyev Sarayında təşkil olunmuş sərgidə isə Qərbi Azərbaycan mədəniyyətinə aid milli geyim nümunələri, məişət əşyaları, quramalar, xalçalar, keçə sənəti nümunələri, bədii tikmələr, Qərbi Azərbaycan xəritəsini əks etdirən dekorativ sənət nümunələri, Qərbi Azərbaycanı təbliğ edən suvenirlər, Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin müəllim və tələbələri tərəfindən hazırlanmış Qərbi Azərbaycana məxsus tarixi abidələrin maketləri təqdim edilmişdir. Festival-konqresdə universitetin İncəsənət fakültəsinin müəllim və tələbələri tərəfindən 100-dən çox rəngkarlıq, heykəltəraşlıq, dekorativ tətbiqi sənət nümunələri nümayiş olunmuşdur.

Naxçıvandakı Heydər Əliyev Sarayında festival-konqresin rəsmi qonaqları Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü Misir Mərdanovun, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı akademik Əhliman Əmiraslanovun, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü, Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədovanın, Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının sədri, Azərbaycan Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü, akademik Abel Məhərrəmovun, Hacəttəpə Universitetinin rektoru, professor Mehmet Cahit Güranın, Qazi Universitetinin rektoru, professor Musa Yıldızın, Azərbaycan Dövlət Pedaoji Universitetinin rektoru, professor Cəfər Cəfərovun, Türkiyə Respublikası Güvenlik ve Dış Politikalar Kurulu Üyesi Aygün Attarın çıxışları dinlənilmişdir.

Festival-konqresin Heydər Əliyev Sarayında keçirilən bədii hissəsində Naxçıvan Dövlət Universitetinin incəsənət fakültəsi və universitetin tabeliyində olan Musiqi Kollecinin müəllim və tələbələrinin ifasında Qərbi Azərbaycana aid aşıq musiqiləri, yallılar, kompozisiyalar, musiqi nömrələri, xalq oyunları təqdim olunmuşdur. "Qərbi Azərbaycana qayıdış" festival-konqres müddətində Naxçıvan Dövlət Universitetində Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynovanın "Qərbi Azərbaycan toponimləri" mövzusunda, Vəkillər Kollegiyası Akademiyasının rektoru, hüquq elmləri doktoru, professor Əmir Əliyevin "İnsan hüquqlarının müdafiəsinin beynəlxalq mexanizmləri", Vəkillər Kollegiyasının üzvü, hüquq elmləri doktoru, professor Mayis Əliyevin "Əmək mübahisələrinə baxılmasının məhkəmə təcrübəsi", Vəkillər Kollegiyasının İxtisas Komissiyasının sədri, "Azərbaycan Hüquq Jurnalı"nın baş redaktoru, hüquq elmləri doktoru, professor Turqay Hüseynovun "Kommersiya mübahisələrinin həllinin aktual məsələləri", Vəkillər Kollegiyasının üzvü, hüquq elmləri doktoru, professor Sübhan Əliyevin "İnzibati məhkəmə icraatında iddialar və onların növləri" mövzularında mühazirələri və ustad dərsləri keçirilmişdir. "Azərbaycan jurnalistlər şəbəkəsi" İctimai Birliyi (AJN) tərəfindən qərbi azərbaycanlıların doğma torpaqlarına qayıdışı mövzusuna həsr olunmuş "Nəsil ağacı" və "Yada daşı" filmləri izləyicilərə təqdim olunmuşdur. Təqdimat mərasimində rəsmi qonaqlar, ziyalılar, ictimaiyyət nümayəndələri, tələbələr iştirak etmişdir.



"Qərbi Azərbaycana qayıdış" festival-konqresi çərçivəsində Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili", filologiya üzrə fəlsəfə doktoru, dosent Könül Həsənova və pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nazilə Abdullazadənin müəllifi olduqları "Zəkanın və milli yaddaşın təntənəsi" kitablarının, Azərbaycan Milli Elmlər Akademiyası Abbasqulu ağa Bakıxanov adına Tarix İnstitutu kollektivinin Qərbi Azərbaycan tarixi üzrə hazırladığı "XIX-XX əsrin əvvəllərində İrəvan şəhərinin tarixindən", dörd dildə nəşr edilən "İrəvan xanlığı", "İrəvan əyalətinin icmal dəftəri", "İrəvan əyalətinin müfəssəl dəftəri", Naxçıvan Müəllimlər İnstitutunun professoru Yusif Səfərovun "Aşıq yaradıcılığında Qərbi Azərbaycan" kitablarının təqdimatı keçirilmişdir.

Aksiya çərçivəsində Naxçıvan Dövlət Universitetinin incəsənət fakültəsində Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Fəxriyə Xələfova ilə görüş keçirilmişdir. Görüşdə "Milli ornamentlərin harmoniyası" adlı kolleksiyadan geyim nümunələri sərgilənmiş və "Xan qızı Xurşidbanu Bəyim Natəvan" filminin təqdimatı keçirilmişdir.

***– Festivalda nümayiş etdirilən dəyərlərin elmi-nəzəri baxımdan araşdırılması konseptual tədqiqat təsəvvürü yaradırdı.***

– "Qərbi Azərbaycana qayıdışa gedən yol" adlı konqres isə 5 istiqamət üzrə keçirilmişdir: "Qərbi Azərbaycan: tarix, həqiqətlər və faktlar", "Qərbi Azərbaycanın mədəni sərvətləri", "Qərbi Azərbaycan dil faktları və toponimikası", "Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri", "Qərbi Azərbaycanda elm və təhsil".

Konqresə Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Dövlət Universiteti, AMEA Naxçıvan Bölməsi, Qərbi Azərbaycan İcması, Sumqayıt Dövlət Universiteti, AMEA Folklor İnstitutu, Vəkillər Kollegiyası Akademiyası, "Naxçıvan" Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Mingəçevir Dövlət Universiteti, Qars Qafqaz Universiteti, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, AMEA Əlyazmalar İnstitutu, AMEA Tarix İnstitutu, AMEA Qafqazşünaslıq İnstitutu, Azərbaycan Dövlət Aqrar Universiteti, AMEA Şərqşünaslıq İnstitutu, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Slavyan Universiteti, Prezident Kitabxanası, DTX-nin Heydər Əliyev adına Akademiyası, Sosial Tədqiqatlar Mərkəzi, Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Botanika İnstitutu, AQRA Elmin İnkişafına Dəstək İctimai Birliyi, Naxçıvan Musiqi Kolleci əməkdaşları məruzələrlə qatılmışdır. Ümumilikdə, konqresin elektron poçtuna məruzə üçün 30-dan artıq elm və təhsil müəssisəsindən 300-dək məqalə və tezis qəbul edilmişdir. Konqresin Elmi Komitəsi və rəyçiləri tərəfindən 173 alimin 157 məruzəsi seçilərək konqresin proqramına daxil edilmiş, həmin məruzələr 17 bölmə iclasında dinlənilmişdir.

Konqresin sonunda bağlanış tədbiri keçirilmiş, iştirakçılara sertifikatlar təqdim olunmuşdur. Konqresin hər il keçirilməsi qərara alınmışdır.

***– Rəngarəng tədbirlərin muxtar respublikanın bölgələrini də əhatə etməsi onun kütləviliyi kimi diqqəti cəlb etdi.***

Bəli, "Qərbi Azərbaycana qayıdış" festival-konqresi bölgələri də əhatə etmişdir. İştirakçıların Ordubad rayonuna səfəri təşkil olunub. Səfər çərçivəsində rayonun Parağa kəndində yaşayan Qərbi azərbaycanlılarla görüş keçirilib. Görüşdə Qərbi Azərbaycana məxsus folklor nümunələri, mədəniyyət və mətbəx nümunələri nümayiş etdirilib. Görüşün keçirildiyi məkanda qonaqlar üçün konsert proqramı da təşkil olunub.

"Qərbi Azərbaycana qayıdış" festival-konqresin iştirakçıları Kəngərli rayonunun Çalxanqala kəndində deportasiyaya məruz qalmış soydaşlarımızla görüşüblər. Qonaqlar Çalxanqala kənd mərkəzində Qərbi azərbaycanlılara məxsus müxtəlif məişət əşyaları, mətbəx nümunələrindən ibarət sərgiyə baxıblar.

***– Bütün bunları ölkə mediası geniş işıqlandırmaqla əhalini və xaricdəki soydaşlarımızı aksiyanın fəal izləyicilərinə çevirdi.***

– Əvvəlcədən nəzərdə tutulmuş və tədbirlərdə medianın geniş iştirakı da təmin edilmişdi. Festival-konqres ölkənin əsas aparıcı mediasında - AzTV, Xəzər TV, Naxçıvan TV, Baku TV, Qərbi Azərbaycan TV, 525-ci qəzet, Şərq qapısı qəzeti, AZƏRTAC, Nuhçıxan, Report, APA, "Azərbaycan müəllimi" qəzeti, "İki sahil" qəzeti, "Xalq qəzeti" və başqaları daxil olmaqla ümumilikdə 133 qəzet, jurnal, televiziya və xəbər saytlarında işıqlandırılmışdır. Festival-konqres haqqında məlumatlar 20-dən çox xarici ölkə mediasında yer almış və həmçinin bundan narahatçılıq keçirən Ermənistan mediasında təşvişə səbəb olmuşdur.

***– Qərbi Azərbaycana qayıdış hərəkatına geniş ictimai dəstək formalaşdıran nəticələr barədə də məlumat verərdiniz.***

– Təhlil və ümumiləşdirilmələrə əsasən, aşağıdakı nəticələrə gəlinmişdir:

– Prezident, Ali Baş Komandan İlham Əliyevin dediyi: "Bizi Qərbi Azərbaycana böyük qayıdış gözləyir" hədəfi istiqamətində festival-konqresin bütün iştirakçıları tərəfindən birlik və əminlik ifadə edilmişdir;

– Qərbi Azərbaycanda ermənilərin və onlara havadarlıq edənlərin xalqımıza qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti, milli faciə və vandalizm faktlarının geniş şəkildə ictimaiyyətə çatdırılması təmin edilmişdir;

– Ermənilərin doğma torpaqlarımızda yerləşdirilmələri, azərbaycanlıların planlı surətdə doğma yurdlarından qovulması ilə bağlı tarixi faktlara söykənilmiş, yeni, dolğun məlumatlar təqdim olunmuşdur;

– Qərbi Azərbaycana məxsus maddi mədəniyyət nümunələri nümayiş olunmuşdur;

– Qərbi Azərbaycandan olan, muxtar respublikada yaşayan sakinlər ilk dəfə olaraq bir araya gəlmiş və onlarla görüş keçirilmişdir;

– Qərbi Azərbaycana məxsus Ermənistan Respublikasının dövlət səviyyəsində həyata keçirdiyi etnomədəni siyasətin qurbanı olmuş yer adlarımızın – toponimlərin, oykonimlərin, hidronimlərin dəyişikliyə məruz qalmasının tarixi faktlara söykənərək elmi əsaslarla təsdiqinə və dünya elmi ictimaiyyətinə çatdırılmasına çalışılmışdır;

– Tarixi ədalətin bərpa edilməsi yolunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yurd-yuvasından didərgin, qaçqın düşmüş Azərbaycan türklərinin tarixi haqlarının bərpasına istiqamətlənmiş siyasətin elmi əsaslarla həm yerli, həm regional, həm də beynəlxalq səviyyədə işıqlandırılması istiqamətində işlər aparılmışdır;

– Ölkəmizin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, həmçinin qardaş Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçıları bir araya gəlmiş, onların Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yeniliklər dinlənilmiş və fikir mübadiləsi aparılmışdır.

Ümumilikdə, "Qərbi Azərbaycana qayıdış" festival-konqresinə müxtəlif formatda 10 min nəfərdən çox iştirakçı qatılmış, bu ümummilli hərəkatla bağlı ölkəmizdə ilk kütləvi elmi-mədəni aksiya uğurla gerçəkləşdirilmişdir.

**– Maraqlı və geniş məlumat üçün sağ olun.**

***Söhbəti hazırladı:***
***Tahir AYDINOĞLU,***
***XQ***

# Güney Azərbaycanın istiqlal salnaməsi

## “21 Azər”ə bərabər yalnız “21 Azər”dir

**78 il əvvəl dekabrın ilk günlərində Milli Hökumətin nəzarətindəki ərazilərdə, baş şəhərimiz Təbrizdə həyat öz axarı ilə davam edirdi. Təbriz radiosu Azərbaycan dilində informasiyalarını yayır, verilişlərinə şair Etimadın, bəstəkar Cahangir Cahangirovun birgə ərsəyə gətirdikləri Milli Hökumətimizin marşı ılı başlayırdı.**






Milli Filarmoniyada, Milli Teatrda məşqlər gedirdi. Yeni açılan Təbriz Dövlət Universitetində, şəhər və kənd məktəblərində, kitabxanalarda həyat öz məcrası ilə gedirdi. Səhiyyə şəbəkələrində insanlara pulsuz xidmət göstərilirdi. Kəndlilər onlara verilmiş pay torpaqlardan götürdükləri məhsulların sevincini yaşayır, bir hissəsini qış azuqəsi kimi yan-yörk edirdilər. Tikinti-abadlıq işləri də gündən-günə genişlənirdi.

Fədailər və asayiş keşikçiləri isə cəmi 12 gündən sonra onları gözləyən fəlakətlərdən xəbərsiz xidməti borclarını yerinə yetirməkdə idilər. Heç kimin ağlına belə gəlmirdi ki, tezliklə Amerika və İngiltərənin himayə etdiyi və Azərbaycan Milli Hökumətinin üstünə qısqırtdığı xain Pəhləvi xanədanının əlləri onu qanına qəltan edəcək. Nə biləydilər ki, çox keçməyəcək ki, on minlərlə insan İranın ilan mələyən guşələrinə sürgünə göndəriləcək. Təəssüflər olsun ki, cəmi 12 gün sonra bu dəhşətlər yaşandı. Beləliklə, “21 Azər” hərəkatı cəmi bir ömür sürdü: Milli Hökumət yarandığı gündə – dekabrın 12-də də tarixin şərəfli yaddaşına qovuşdu.

Həmin gün Arazın bu tayına ailə üzvləri ilə birgə 3 istiqamətdə pənah gətirən minlərlə inqilab iştirakçısı da bir neçə gün əvvəl güman etmirdi ki, bu, bütöv bir azadlıqsevər nəslin sonu görünməyən mühacirlik taleyinin başlanğıcıdır. Bu insanlar dekabrın 12-də Arazı, Bulqar çayını keçərkən, Heyran aşırımını adlayarkən bir də geri dönməyəcəklərini hiss edirlərmiş kimi, çevrilib sonuncu dəfə doğma elləri seyr edirdilər. Bu mərd, dəyanətli insanların məqsədi heç də yeni yurdda məskunlaşmaq deyildi. Hamı tezliklə geri dönəcəyinə, 1 il əvvəl başlanılan işlərin davam etdiriləcəyinə, İran daxilində muxtariyyətə malik Azərbaycanda bəşəri hüquq və azadlıqların bərpa ediləcəyinə əmin idi.

İndi o vaxtdan 78 il ötür. Tarix öz diqtəsini edib, inqilab iştirakçılarının sıralarını darayıb. “21 Azər” iştirakçılarının sağ qalanları barmaqla sayılan qədərdir. Ağsaqqalı da var, ağbirçəyi də. Fəqət, yurdsevər, başıbəlalı, dəyanətli ata-babalarımız dünyadan qəlblərində Təbriz həsrəti, dillərində “21 Azər” şüarı ilə köçüblər. Bu sədaqətin köklərini “21 Azər”in tarixi mahiyyətində, onun təşkilatçısı və ilhamvericisi Azərbaycan Demokrat Firqəsinin mübarizəsində, İranda XX əsrin əvvəllərindən indiyədək davam edən anti-türk siyasətinin amansızlığında axtarmaq gərəkdir.

Ötən əsrdə İranda “21 Azər”ədək də xalq hərəkatları və inqilablar baş verib. Lakin sözün əsl mənasında, “21 Azər” fundamental, bənzərsiz bir siyasi hadisədir. İstər Səttərxan (1905–1911-ci illər), istər Şeyx Məhəmməd Xiyabani (1918–1920-ci illər) hərəkatları, istərsə də “22 Bəhmən” inqilabı mahiyyətinə və xalqa keyfiyyətcə bəxş etdiklərinin miqyasına görə onunla müqayisəyə gəlməzdir.

İçtimai qayəsinə və miqyasına görə bu hərakat daha böyükdür. Belə ki, “Tənbəki üsyanı”ndan başlayaraq, “22 Bəhmən”ə qədər baş verən inqilablar və xalq hərəkatları tamamilə siyasi xarakter daşıyıb, ancaq siyasi hakimiyyətlərin dəyişməsi ilə başa çatıb. Azərbaycan Demokrat Firqəsinin rəhbərlik etdiyi “21 Azər” hərakatı və onun yaratdığı Milli Hökumət təkcə siyasi dəyişiklikləri ilə deyil, Azərbaycanın bütün içtimai, iqtisadi və mədəni sahələrində apardığı köklü islahatları, dəyişiklikləri ilə yadda qalıb. Cəmi 1 il hakimiyyətdə olan ADF-nin, Milli Hökumətin gördüyü işlər İran tarixində reallaşdırılanların 100 ilinə bərabər sayılır. Belə desək, “21 Azər”in alternativi yalnız “21 Azər”dir.

Dediklərimiz 1324-cü ilin 12 Şəhrivərində (3 sentyabr 1945-ci il) ADF-nin yaradıcıları tərəfindən imzalanan Bəyənnamənin dünyəviliyinə, bütün İran xalqlarının mənafeyləri ilə səsləşməsinə əyani sübutdur. Bütün bunlar Amerikalı hüquqşünas Uilyam Duqlasın 1950-ci ildə yerli camaatın Milli Hökumət və onun baş naziri Seyid Cəfər Pişəvərinin xidmətləri barədə xatirələrini qələmə alarkən tutduğu siyahıda da təsdiqini tapıb. Ən mühüm islahatlar, əsasən, 3 kateqoriyaya bölünüb: siyasi islahatlar; mədəni islahatlar; siyasi-iqtisadi islahatlar.

Bəli, 78 ildir ki, Bakıda, Azərbaycanın əksər şəhər və bölgələrində “21 Azər”in ildönümləri qeyd olunur. Avropada və Amerikada da məclislər təşkil edilir. “Mühacirət” ifadəsi nə qədər üzüntülü səslənsə də, biz sözün əsl mənasında, bacı və qardaşlarımızın qayğısı, doğma münasibətləri sayəsində əldə etdiklərimizi minnətdarlıqla dilə gətirməyə borcluyuq. Bu, dünyanın heç bir ölkəsinin mühacirəti ilə müqayisə edilə bilməyəcək mütərəqqi nümunə, əyani misaldır. 78 il əvvəl Vətənin bu tayına yalnız silahı ilə pənah gətirənlərin sıralarından 200 nəfər elmlər namizədi və doktorunun, minlərlə tanınmış mütəxəssisin yetişməsi, 10 min nəfərə yaxın soydaşımızın orden, medal, fəxri adlarla təltif olunması, onlara minlərə mənzillərin verilməsi, digər bəşəri qayğılar yalnız və yalnız mahiyyətində insanpərvərlik, humanizm hökm sürən doğma bir xalqın əhatəsində mümkün ola bilərdi. Məhz buna görə bizlər də Azərbaycan Respublikasının uğurlarını öz nailiyyətlərimiz sayır, bu tərəqqi ilə fəxr edir, Vərtnin bu tayında əldə edilmiş dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi yolunda hər cür fədakarlığa hazır olduğumuzu əməli nümunələrimizlə sübuta yetiririk. Yüzlərimizin döyüş meydanındakı şücaətlərinə görə layiq görüldükləri dövlət təltifləri də bundan xəbər verir.

Nəsillər dəyişsə də yolumuz, amalımız dəyişməz qalır. Bu üç bənddə ifadəsini tapdığı kimi:

*On illərdir yol gəlirəm,*
*Atam Azər, özüm Azər.*
*Mən əbədi bir məşələm,*
*Təşnəm Günəşə bərabər.*

*Yora bilməz yollar məni,*
*Qəlbim tükənməz atəşli.*
*Xalqım daim qeyd edəcək,*
*Müqəddəs “21 Azər”i.*

*Qoy kimsə də düşünməsin,*
*Yaşayırıq bir şam ömrü.*
*Zirvələrin bəzəyidir,*
*Bayrağı “21 Azər”in.*

***Rəhim HÜSEYNZADƏ,***
***Azərbaycan Demokrat Firqəsinin sədri, Əməkdar jurnalist***

**Mühacirlər nəslinin istedadları**

# Özü getdi, səsi qaldı

**Bu məqalə Azərbaycanın əməkdar jurnalisti İttifaq Mirzəbəylinin musiqi mədəniyyətimizin görkəmli simalarından birinə həsr edilən “Əhməd Bakıxanov xatirələrdə” kitabından götürülüb. Nəşrdə böyük sənətkarla bərabər, onun istedadını dəyərləndirdiyi, köməyini əsirgəmədiyi Rövşən Behcət barədə də yazı yer alıb. Həmin məqaləni oxuculara təqdim edirik.**



Mərhum Rövşən Behcət 17 mart 1945-ci ildə Təbrizdə dünyaya göz açıb, 1961-ci ildə valideynləri ilə birgə Gəncəyə mühacirət edib. M.Ə.Sabir adına 5 saylı orta məktəbdə təhsil alıb. İstedadlı müğənni 1969-cu ildən ömrünün sonunadək Fikrət Verdiyevin rəhbərlik etdiyi Gəncənin “Göygöl” xalq çalğı alətləri ansamblındakı çıxışlar edib, sənət dünyasında orijinal izlər qoyub.

Onun oxuduğu “Şirin yuxun olaydım”, “Biri sənsən, biri mən”, “Ala gözlüm”, “Getdim ki, getdim”, “Göygöl” mahnılarını, “Dəşti” təsnifini və sairi xatırlayarkən istər-istəməz deyirik: o səsdən bir daha gəlməyəcək.

Rövşənin “Göygöl” ansamblının müşayiəti ilə bənzərsiz çıxışları özünə də, ansambla da böyük şöhrət gətirmişdi. Onun adı musiqi həvəskarlarının dilindən düşmürdü, onun ifası yazılmış lentlər hər yerə yayılmışdı. Az.TV Rövşənin ilk çıxışından sonra tamaşaçıların xahişi ilə onu təkrar olaraq studiyaya dəvət etmişdi.

Bir dəfə Rövşənin canlı konsertini izləyən görkəmli tarzən Əhməd Bakıxanov gənc ifaçı ilə görüşüb deyir: “Çox gözəl, olduqca gözəl oxudun, bala! Zəngulələrindən hiss etdim ki, Cənubdansan. Böyük gələcəyinə inanıram, bu cür şaqraq və davamiyyətli zəngulələri, şirin oxunuşu İran xanəndələrindən eşitmişəm, çox ləzzət verdi. Azərbaycan muğamlarını yaxşı öyrən, kömək lazım olsa, müraciət et! Asəf Zeynallı adına musiqi məktəbində yaxşı müəllimlər, xanəndələr var, təhsil almağın vacibdir”.

Böyük ailənin bütün üzvləri Gəncədə yaşadığından və onları Rövşən dolandırdığına görə o, müsiqi təhsilini Gəncədə aldı, şəhər filarmoniyasında şlədi.

# Gəncə Teatrının ulduzu

**Güney əsilli istedadlı sənətkarlarımızdan biri də uzun illərdən bəri Gəncə Dövlət Dram Teatrında aktyor kimi çalışan Mətləb Təhmazidir. Başqa bir mühacir soydaşımız, parodiyaçı aktyor mərhum Həsən Cəbrayılovun (Ahəngi) sənət dostu barədə bir neçə il əvvəl çap etdirdiyi yazını da oxucuların nəzərinə çatdırırıq.**



Barat Təhmazinin adı Gəncədə böyükdən-kiçiyədək hamıya məlumdur. 1922-ci ildə Ərdəbildə anadan olan ağsaqqalın fədai kimi xatirələrini dinləməkdən zövq alırdıq. Bu söhbətlər onun silahdaşları olan ata-babalarımızın söylədiklərinə uyğun gəldiyindən valideynlərimizin də dediklərinə şəkk-şübhəmiz qalmırdı. Ticarət işçisi kimi hörmət qazanmışdı. Xeyir-şərdə heç kimdən geri qalmazdı.

O, Şövkət Qafarova ilə ailə həyatı qurdu. Təkcə bir övladları oldu. 20 avqust 1964-cü ildə Mətləb adlı oğulları dünyaya gəldi. Ata Gəncədəki 4 saylı musiqi məktəbinin qarmon şöbəsini bitirən Mətləbin başqa sənət sahibi olmasını, oğlunun 15 saylı peşə məktəbində inşaatçı peşəsinə yiyələnməsini istəyirdi. Lakin Mətləbi səhnə özünə çəkirdi.

Mətləb Təhmazi 1979-cu ildə Gəncə Dövlət Dram Teatrına gəldi və həyatını əbədi olaraq səhnəyə bağladı. Bu vaxta kimi, teatrda 40-a yaxın səhnə obrazının ifası ona həvalə edilib. 44 ildir ki, aktyordur. Onu Xalq artistləri Alim Məmmədov, Pərvanə Qurbanova və başqaları müsbət xarakterizə ediblər.

Bir neçə seriala çəkilən M.Təhmazi yerli kabel televiziya kanalında təqdim olunan filmlərin 80 faizinin dublyajında iştirak edib. Gəncə teatrında “Tilsimli dağ”da Carçı, “Sokratla söhbət”də Apalador, “Qız atası”nda Vilayət, “Məhsəti Gəncəvidə”də Şaiq, “Oqtay Eloğlu”nda Aslan bəy və digər rolları yaradıb. “Döngələr”, “Nizami”, “Cavad xan”, “Miskin Abdal”, “İbad Hüseynov”, “Dəli Alı”, “İbrahim xan” filmlərində çəkilib.

***Təqdim etdi:***
***Rəhman GƏNCƏLİ***

# Təbriz dövlət teatrının gözəlləşməsi

**Həmid Nikpur adlı müəllifin bu yazısı Azərbaycan Demokrat Firqəsinin orqanı olan “Azərbaycan” qəzetinin Təbrizdə işıq üzü görmüş 8 fevral 1946-cı il tarixli 121-ci sayından götürülüb. Materialda Azərbaycan Milli Hökumətinin apardığı mədəni quruculuğun seçilən nümunələrindən biri olmuş Təbriz Teatrının fəaliyyətindən söhbət açılır.**



Hamının bildiyi kimi, Təbrizdə olan sabiq “Şir və Xurşid” teatrı Azərbaycan xalqının zəhməti sayəsində, şahı-şahı yığılmış böyük pulların məsrəfi sayəsində əmələ gəlmişdir. Lakin, buna baxmayaraq, yararlı bir teatr binası ortaya çıxmamışdı.

Burada “niyə?” sualı verilərsə, cavabını şox asanlıqla vermək olar. Çünki o zaman Tehrandan Azərbaycana qarət ünvanı ilə, farslar özləri demişkən, “dəşt eləmək” (silib süpürmək, boş səhraya döndərmək – red.) xəyalı ilə gəlmiş boynuyoğun quldur rəislər oranın büdcəsinin böyük hisəsini çalağan kimi çalmaqdan ötrü heç də razı olmazdılar ki, bir mühəndisə belə müəyyən miqdarda pul verib baha qiymətə düzgün bir teatr əmələ gəlsin və nəticədə də ağaların çənginə bir şey keçməsin.

Ona görə də öz planları üzrə bu binanı əmələ gətirmişlər ki, tamamilə memarlıq əsaslarına yaddır. Adətən, səsin yaxşı yayılmasından ötrü teatr salonunu yumurta şəklində düzəldirlər. Bunun da səbəbini fizikada səs bölümünü oxuyanlar yaxşı bilərlər. Lakin buranın içərisi isə sadə bir salon şəklində, yəni, düzbucaqlı formasında qayrılmışdır. Bundan başqa, salonun divarları işıqlılıq üçün açıq rənglər əzəvinə, tünd rənglərlə rənglənmişdir.

Hələ buranın foye hissəsi, yəni, tamaşaçıların pərdələr arasında gəzintiyə çıxdıqları xarici salon lap bərbad bir halda idi. Daha doğrusu, ən təkmil qəhvəxanalardan da mənzərəsiz idi. Səhnənin özünə gəldikdə daha böyük nöqsanlara təsadüf etmək olardı. Orada artistlərə paltarlarını əvəz etmək üçün yerlər nəzərdə tutulmamışdı. Səhnənin qabağındakı musiqi dəstəsinə məxsus olan yer isə hesab üzündən düzəlmədiyi üçün o qədər çuxur idi ki, heç vaxt dirijor, yəni, musiqi dəstəsinin rəhbəri artistlərin oxumalarını musiqi ilə uyğunlaşdıra bilmirdi.

Ümumiyyətlə, nöqsan axtarsaq, o qədər taparıq ki, sayı-hesabı olmaz.

Hələ bunların hamısından savayı, orada bir pyes oynanmalı olsaydı, böyük bir çətinlikdən sonra ona müvəffəq oluna bilərdi. O da yalnız fars dilində və hətta az qalardı ki, onun səhnədə oynanılması üçün şah tərəfindən göstəriş verilsin.

Ümumiyyətlə, teatrın o vəziyyətdə olması və xüsusilə pyeslərin azərbaycanlıların öz dilində olmaması üzündən təbrizlilərdən çox az adam tamaşaya gedərdi.

Ancaq teatrın həqiqi qiyməti verilərsə, səhnə ictimai həyatın ibrət aynasıdır. Bu səbəbdən də ölkəmizdə teatr öz həqiqi qiymətini yalnız Milli Hökumətimizin yaranmasında tapdı.

İndi keçmişdə “Şir və Xurşid” adlanan səhnə artıq Maarif Nazirliyinin ixtiyarına verilməklə rəsmi Dövlət Teatrı adını aldı. Maarif Nazirliyimiz bura böyük əhəmiyyət verdiyindən teatrın bərpası və təmiri üçün böyük məbləğ pul ayırılıb. Hal-hazırda oradakı işlər Təbriz mədəniyyət evinin müdir müavini, cənab mühəndis-memar Məcidovun planı və rəhbərliyi ilə icra olunur. İndi yuxarıda qeyd olunan nöqsanların hamısı islah olunub. Əvəzində həqiqi və mədəni bir teatr şəklini alıb ki, bu da dövlətimizin xalqımıza diqqətinin nəticəsir. Bir aydan yuxarı aparılan təmir işləri bu yaxın günlərdə qurtaracaq. Həmin teatr indi elə gözəlləşib ki, bir dəfə görən bir daha görməyini arzulayacaq.

***Təqdim etdi:***
***Səməd BAYRAMZADƏ***

**Məhbub Xoşkəlam 1909-cu ildə Sərab məhalının Çöllü kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. O, məktəbə gedib oxumaq əvəzinə, özgə təsərrüfatlarında işləməyə məcbur olmuşdu. Cavan ikən öz doğma kəndindən baş götürüb iş dalınca şəhərlərə getmişdi. O, İranın mövcud irtica quruluşunun ağırlığını öz çiyinlərində hiss etdikcə, ona qarşı daha çox nifrət etmiş, bu vəziyyətdən çıxış yolu axtarmışdı.**

# Azadlıq mübarizi Məhbub Xoşkəlam



1941-ci ildə Hizbe Tudə İran yarananda onun sıralarına qoşulan Məhbub onun məram və şüarlarının yayılmasına xidmət edir. 1945-ci ildə Azərbaycan Demokrat Firqəsi təşkil olunanda isə Məhbub Xoşkəlam bu partiyaya öncüllər sırasında qoşulur. Sərab Vilayət Komitəsinin Təftiş komissiyasının sədrliyinə seçilmiş Xoşkəlam Milli Hökumətin ictimai, iqtisadi islahatın həyata keçirilməsinə çalışır.

Məhbub Xoşkəlam “21 Azər” hərəkatında əldə silah fəal surətdə iştirakına görə Azərbaycan Milli Məclisi tərəfindən “21 Azər” medalı ilə təltif olunur. Torpaq islahatı, maarif şəbəkələrinin genişlənməsi işlərində Xoşkəlam Milli Hökumətin məmurlarına kömək edir. O, Sərab bələdiyyəsinə seçilir, şəhərin abadlığı və asayişinin təmin edilməsində firqə və hökumət göstərişlərini ardıcıl yerinə yetirir.

Şah qoşunları 1946-cı ilin dekabrında Azərbaycana xaincəsinə basqın etdikdə Məhbub Xoşkəlam vəhşicəsinə qətlə yetirilir. Sərab zəhmətkeşlərinin mübariz oğlu Məhbub Xoşkəlamın xidmətləri, onun xatirəsi azadlıqsevər güneylilərin qəlbində yaşayır.

***Hüseyn RƏHİMZADƏ***

XALQ TV-NİN QONAQLARI

# Uşaq ədəbiyyatının böyük qayğıları

**Filologiya elmləri doktoru, professor, Əməkdar müəllim, Prezident təqaüdçüsü, uşaqların sevimli yazıçısı Zahid Xəlil “Uçan çıraqlar”, “Qarışqalar”, “Mən rəngləri tanıyıram”, “Göydən üç alma düşdü”, “Quşlar”, “Torağaylar oxuyur”, “Ballıca”, “Çıraq nənənin nağılları”, “Cırtdanla Azmanın macəraları”, “Odlar yurdunun paytaxtı”, “Dünyanın ən balaca nağılları” kimi kitabları ilə tanınan qələm sahibidir. Onunla söhbəti təqdim edirik.**



**– Gəlin, əvvəlcə xəyalən Yevlaxa, ilk yazılarınızın çap olunduğu vaxtlara səyahət edək.**

– Yevlaxda nağıllarım çap olunmayıb, amma yazdıqlarımın hamısı Yevlaxla bağlıdır. Oradan ayrılandan sonra yazmağa başlamışam. Hətta “Cırtdanla Azmanın macaraları”nda bir məqam var. Mən Cırtdana deyirəm ki, sən elə mənəm, sən qal Yevlaxda, ata-baba yurdumuzdan muğayat ol. Hərdən yanına gələcəyəm. O doğmalıq olmasa, nağıl uşaqlara da xoş gəlməz. Bütün əsərlərimin mahiyyətində doğmalıq hiss olunur. İlk dəfə “Vətənim” şeiri “Yevlax” qəzetində çap ediləndə 10-cu sinifdə oxuyurdum. Çox vaxt tənqidçilər bunu ilk əsər adlandırırlar, amma, o, sadəcə ilk təcrübədir. İlk əsərim isə universitetdə oxuyarkən yazıldı. Belə bir şeir idi:

**Bizim bağçamıza bir çəmən düşüb,**
**Sürüşüb baharın çiynindən düşüb.**
**Gündüzlər nə qədər quzu var orda,**
**Xırtaxırt quzular otlayır orda.**
**Səhərlər çəməndə şeh var, inci var,**
**Şehlər quzuların gözü tək parlar.**

**– Şeiriniz də, elə bil nağıldır.**

– Elədir. Bu, poeziyanın dili ilə nəql edilən əhvalatdır. Mən nağıla 1981-ci ildə “Ballıca” kitabının nəşri ilə keçmişəm. Nağıl böyük fəlsəfədir. Xristian Andersen nağılçıdır, amma ona həm də filosof deyirlər. O, fəlsəfəni tezis şəklində yazmır, tezisi nağıla çevirir. Mən də çalışımışam ki, bu yolu tutum. Mən janrı niyə dəyişdim? Bu, təsadüfən oldu. Əli Kərim dünyanın məşhur yazıçısı Janni Radarinin “Telefonla danışılan nağıllar” hekayə silsiləsini tərcümə edib “Ədəbiyyat qəzeti”ndə çap etdirdi. Mən qəzetin nömrəsini həsrətlə gözləyirdim ki, alıb oxuyum. Bir gün ağlıma gəldi ki, mən də belə nağıllar yaza bilərəm. Beləcə, qələmi sınadım.

**– Bizim uşaqlığımız sizin “Ballıca” kitabınızla keçib. Həm də televiziyada bir verilişiniz vardı, sevə-sevə izləyirdik.**

– Bəli, “Sizin sevimli yazıçılarınız” verilişini rəhmətlik Tofiq Mahmud aparırdı, məni qonaq dəvət etmişdi. Mikayıl Rzaquluzadənin yaradıcılığından danışırdıq. Veriliş bitəndən sonra mənə dedilər ki, gəl, sən də aparıcı ol. Həmin il Tofiq Mahmud başqa vəzifəyə keçdi. Həmin veriliş mənə həvalə olundu. Sonra adını dəyişdik, qoyduq “Məktəblinin kitabxanası”. İlk vaxtlar böyük yazıçımız Mir Cəlal Paşayevlə birlikdə aparırdıq verilişi. Mən onu ona görə seçdim ki, Mir Cəlal müəllim ensklopedik biliyə malik insan idi, ondan çox şey öyrəndim.

**– Sizin veriliş uşaqların maariflənməsində böyük rol oynayırdı. Uşaq jurnalları, qəzetləri də çap edilirdi. Bu gün onlara daha çox ehtiyac var.**

– O jurnallar, qəzetlər yenə var. “Göyərçin”, “Savalan” çap edilir. Amma bu nəşrlər o vaxt 250 min tirajla çıxır, demək olar ki, bütün ölkə məktəblilərinə çatdırılırdı. İndi o jurnalların yayımı da yoxdur. “Günəş” jurnalı çap olunur, amma yayılmır. Çünki çapı baha başa gəlir. Amma hansısa bir yolla uşaq jurnallarının yayımı qaydaya salınmalıdır ki, böyüyən nəsil mənəvi tərbiyədən kənarda qalmasın. Mənim kitabımın qiyməti 8-10 manat arasıdır, bu da məktəbli üçün çox bahadır.

Azərbaycanda nə qədər nəşriyyat var, nə qədər kitablar çap olunur. Bədii səviyyəsi aşağı olan kitabın çapı çox ziyandlıdır. Oxucu onu oxuyur və kitabdan qaçaq düşür. Uşaqlar üçün kitab alanda da valideynlər gərək düzgün seçim etsinlər. Mən həmişə demişəm: biz, əslində, valideyin üçün yazırıq. Kitabların seçimi onlara aiddir. Əvvəl özləri oxumalıdır, sonra uşağa məsləhət görməlidirlər. Adi nağıl başqadır, fəlsəfi nağıllar tamam başqa. İkincilər artıq uşaq nağıllarını oxuyaraq yetişmiş yeniyetmələrin oxuması üçündür. Bunları valideyn bilməlidir.

**– Əvvəllər məktəblilərə ədəbiyyat siyahısı verilərdi, yaş qrupları nəzərə alınardı. İndi o da yoxdur.**

– O siyahıdan başqa, ədəbiyyat müəllimlərinin özlərinin də siyahısı olurdu. 10 il ərzində uşaq hansı kitabları oxumalıdır, əvvəldən bilirdi. İndi bəlkə də tək-tək belə müəllimlər var, amma kütləvi deyil. Uşaq Nizamini, Nəsimini, Cəlil Məmmədquluzadəni oxumalıdır. Bu, uşağın düşüncəsinin, nitqinin inkişafına xidmət edir.

**– Bu gün uşaq ədəbiyyatının ən böyük problemi nədir?**

– Uşaq ədəbiyyatının nəşri sadələşdirilməlidir, müəllifə yüksək qonorar verilməlidir ki, əziyyətə qatlaşsın. Uşaq ədəbiyyatı uşaqlar üçün əlçatan olmalıdır.

**– Hazırda nə üzərində işləyirsiniz?**

– Hekayələr yazıram. Xaricdə çap etdirmək təklifi almışam, amma mövzunu özləri sifariş ediblər. Onları qlobal mövzular maraqlandırır, su qıtlığı, meşə yanğınları və sair. Yazdıqlarımı bəyəniblər. Avropada naşirlər daha tələbkardılar. Gərək elmi, siyasi səhvə yol verməyəsən. Son illər yazdığım və ən qiymətli hesab etdiyim “Dəmir yumruq” dastanıdır. Orada Şuşanın azad olunması ilə bağlı bir hekayə var.

Almaniyadan bir nəşriyyat mənə müstəqil Azərbaycan uşaqları barədə bir hekayə yazmağı sifariş vermişdi. Həmin hekayəni onların istəyi ilə yazdım. Cıdır düzündə bir helikopter partlamışdı, onun partlamasını uşaqların nəzəri ilə təsvir etmişəm. Uzun illər sonra mən onların istədiyi hekayəni yaza bildim. Uşaq ədəbiyyatının təəssübünü çəkmək lazımdır, onda problem qalmayacaq.

***Söhbəti apardı:***
***Ramilə QURBANLI***
***XQ***

TƏQDİMAT

# Görkəmli türkoloqun yeni kitabı

**Dünən Azərbaycan Yazıçılar Birliyində görkəmli türkoloq, Əməkdar elm xadimi Tofiq Məliklinin “Türkbilimi (Türkoloji) yazılarımdan seçmələr” kitabının təqdimatı oldu.**



Əməkdar incəsənət xadimi Firuz Mustafa Tofiq Məliklinin həyat və yaradıcılığından söz açaraq, Azərbaycan mədəniyyətinin və ədəbiyyatının təbliğində müstəsna rolunu vurğuladı. O, şərqşünas alimin Azərbaycan–Rusiya elmi-mədəni əlaqələrinin inkişafına və Rusiyada diaspora hərakatına da çox böyük töhfə verdiyini də diqqətə çatdırdı.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Tofiq Məliklinin, demək olar ki, bütün kitablarını oxuduğunu söylədi. O, yeni kitabın türkologiya elmi üçün növbəti töhfə olduğunu qeyd etdi. Tofiq Məlikliyə yeni-yeni yaradıcılıq uğurları arzuladı.

Yazıçı, publisist, ərəb filologiyası üzrə fəlsəfə doktoru Fazil Güney professor Tofiq Məliklini sözünü, izini bu dünyada qoyan, Anadolu, Qafqaz, Orta Asiya, son Rusiya və Avropa ölkələrinin türkoloji çevrələrində yaxşı tanınan dəyərli alim, nüfuzlu şəxsiyyət kimi qiymətləndirdi: Ana yurdu Azərbaycanın timsalında bütün türk dünyasını dərindən sevən, bu sevgini sözlə, işlə – yazdığı əsərlərlə, əcnəbi universitetlərdə oxuduğu mühazirələrlə göstərmiş, Sovet dönəmində çoxlarının cürət etmədiyi gerçəklikləri deyib yazmış Tofiq Məlikli türkoloq kimi ömrünün bu çağında da öz missiyasını yerinə yetirməkdə davam edir”.

Filologiya elmləri doktoru, kitabın elmi redaktoru Minaxanım Nuriyeva yeni nəşr barədə ətraflı məlumat verdi.

Professorlar Cəlil Nağıyev, Elxan Əzizov, Elman Quliyev, türkoloq Nuridə Novruzova, şair, oftolmoloq Paşa Qəlbinur, Əməkdar jurnalist Tahir Aydınoğlu və digər tədbir iştirakçıları Tofiq Məliklinin ümumi yaradıcılığı və yeni kitabı haqqında fikirlərini bölüşdülər.

Təqdimat mərasimində qeyd edildi ki, yeni kitabda IX-XV əsr Qədim ortaq türk ədəbiyyatı, qədim türk şeir gələnəyi və heca vəzninin formalaşması, Azərbaycan ədəbiyyatında dövrləşmə problemi, ana dilinin strateji mövqeyi və digər bölmələr öz əksini tapmışdır.

Bildirildi ki, Tofiq Məlikli 15 elmi monoqrafiyanın, türkoloji və filoloji problemlərə həsr olunmuş 200-ə yaxın məqalənin




yazarıdır. Həm də dəyərli şeirlər müəllifi olan alim Nazim Hikmət, Fazil Hüsnü Dağlarca, Yaşar Kamal, Orxan Pamuk, Fakir Baykurt, Əziz Nesin və başqa Türkiyə yazıçılarının əsərlərini rus və Azərbaycan türkcəsinə çevirmişdir. İki poetik kitabın müəllifidir. Tofiq Məliklinin əsərləri bir çox xarici dillərə tərcümə edilmişdir.

Sonda türkoloq alim Tofiq Məlikli XQ-ya qısa açıqlamasında bildirdi: – Biz milli elmimiz olan türkologiya və şərqşünaslıqda baş verən bir sıra prosesləri araşdırmalı və həqiqətləri xalqa təqdim etməliyik. Keçmişi öyrənməsək, bilməsək gələcək nəsillər üçün üstü açılmamış tarix ağır yük olacaq. Qədim Gültəkin, Tonyukuk abidələrində tariximiz və dilimiz əks olunub. Gültəkinin öz xalqına, millətinə türklərə olan müraciətində vəsiyyət olunub: “Ey oğuzlar, ey türk budunları (xalqları), həyatda qalmaq istəyirsinizsə böyük dövlət qurmalısınız. Böyük dövlət də müstəqil olmalıdır. Biz dünyanın böyük bir hissəsini zəbt etdik. Böyük türk dövlətini yaratdıq. Ancaq unutmamalıyıq ki, ətrafımızda düşmənlərimiz də çoxdur. Biz nə Çinin şirin dilinə, nə də ipəyinə aldanmamalıyıq”.

Bunları deməkdə məqsədim odur ki, biz keçmişimizi nə qədər yaxşı bilsək, bu günümüzü doğru dəyərləndirə və gələcəyə böyük ümidlərlə baxa biləcəyik.

***Fidan SALMANLI***
***XQ***

DOSTLUQ SƏDAQƏTİ

# Gəncə Barataşvilini unutmur

**Qısa ömür yaşamış gürcü şairi Nikoloz Barataşvilinin adı Azərbaycanda və Gürcüstanda, hətta bu ölkələrin hüdudlarından kənarda da yaxşı tanınır. Xatirəsi daim hörmətlə anılır. O, Gürcüstanda Şota Rustavelidən sonra ikinci görkəmli şair hesab olunur. Acınacaqlı taleyi olan şair 19-cu əsrin ortalarında qısa bir müddət ərzində Gəncədə yaşayıb-yaradıb.**

Gənc Nikolazın atası knyaz Meliton Barataşvilinin müflis olduqdan sonra o, Vətənini tərk emək məcburiyyətində qalıb. Əvvəlcə Naxçıvanda, daha sonra Gəncədə, Cavadxan dəfətərxanasında çalışıb. 1845-ci ilin iyun ayında Yelizavetpol qəzasının rəisi Mamuka Orbelianinin köməkçisi vəzifəsinə təyinat alan Barataşvili həmin ilin oktyabrın 21-də malyariyadan vəfat edib. 1968-ci ildə gürcü şairi Simon Çikovani onun vəfatına “Gəncə gündəliyi” adlı lirik poema da yazıb. Romantik şair və tərcüməçinin keçdiyi qısa yol, yaradıcılığı ölümündən sonra daha çox diqqət çəkib.



Gəncədəki xristian kilsəsinin həyətində dəfn olunan Nikoloz Barataşvilinin nəşi yalnız 48 ildən sonra görkəmli gürcü ədibi, ictimai xadim İlya Çavçavadzenin təşəbbüsü ilə Tbilisiyə aparılıb və orada torpağa tapşırılıb. Sağlığında heç bir əsəri işıq üzü görməyən şairin əsərlərindən ibarət ilk toplu vəfatından bir neçə on il sonra nəşr olunub. Onun irsindən 37 şeiri, “Gürcüstanın taleyi” adlı bir tarixi poeması və 20-yə yaxın şəxsi məktubu qalıb.

Görkəmli şairin Azərbaycan–Gürcüstan mədəni əlaqələrində xüsusi yeri var. Təsadüfi deyil ki, 2017-ci ildə N.Barataşvilinin 200 illik yubileyinin YUNESKO-nun beynəlxalq əhəmiyyətli tədbirlər siyahısına daxil edilməsinin əsas təşəbbüskarlarından biri məhz Azərbaycan olub. Gəncədə vaxtaşırı şairin xatirəsinə həsr olunmuş tədbirlər, müxtəlif görüşlər, ədəbi-bədii gecələr keçirilir. Bu günlərdə Gəncə Şəhər İcra Hakimiyyətinin, Mədəniyyət nazirliyinin və Gürcüstanın Gəncədəki Baş Konsulluğunun təşkilatçılığı ilə şairin 205 illik yubileyi münasibətilə Cavadxan dəftərxana muzeyinin önündə xatirə lövhəsinin açılışı olub.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gürcüstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze, Türkiyənin Gəncədəki Baş konsulu Rəcəp Öztop, Mədəniyyət nazirinin müavini Murad Hüseynov, millət vəkilləri Pərvin Kərimzadə, Müşfiq Cəfərov, Arzu Nağıyev, YAP Gəncə Şəhər təşkilatının sədri Bayram Aslanov, Gürcüstan Yazıçılar Evinin direktoru, deputat Ketevan Dumbadze və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimdə bildirilib ki, Azərbaycan və Gürcüstan xalqlarının qardaşlıq əlaqələri tarixi köklərə malikdir. Nikolaz Barataşvili də qısa ömrünü bu amala həsr edib. Çıxışlardan sonra Niyazi Bayramov və Zurab Pataradze xatirə lövhəsinin üzərindən örpəyi götürüblər, lövhənin önünə tər güllər düzülüb. Sonra “Xəmsə” Uşaq Rəqs Ansamblının, Qax rayonunda fəaliyyət göstərən “Şvitkatso” Gürcü Xalq Xorunun və “İmedi” rəqs kollektivinin konsert proqramları təqdim olunub. İştirakçılara Nikoloz Barataşvilinin kitabları hədiyyə edilib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***
**Gəncə**

# Şeir məclisi, ədəbi müzakirə



**Azərbaycan Dövlət Teatr Muzeyində Mədəniyyət Nazirliyi və Azərbaycan Gənclər Fondunun dəstəyi, “İRƏLİ” İctimai Birliyinin təşkilatçılığı ilə Əməkdar incəsənət xadimi, şair Baba Vəziroğlu ilə görüş keçirilib.**

Tədbiri giriş sözü ilə açan “İRƏLİ” İctimai Birliyinin katibi Riad Cəbrayılov “Heydər Əliyev İli”nə həsr olunmuş layihə çərçivəsində mütəmadi olaraq mədəniyyət xadimləri ilə maarifləndirici və interaktiv görüşlərin keçirildiyini bildirib. Milli ədəbi mühitin formalaşmasında gənclərə olan diqqət və qayğıdan söhbət açan Riad Cəbrayılov bu səpkidə keçirilən müxtəlif tədbirlərdən də bəhs edib.

Sonra şair Baba Vəziroğlu geniş təqdimatla çıxış edərək Ulu öndər Heydər Əliyevlə bağlı olan xatirələrindən, eləcə də müasir Azərbaycan ədəbiyyatı və şeiriyyətinin inkişafı barədə söhbət açıb. Şair son dövrdə yazdığı şeirlərdən parçalar söyləyib.

Görüş “Azərbaycan ədəbiyyatının inkişafında Heydər Əliyev amili”, “Mədəniyyətimizin yaşadılması, inkişafı və təbliğində Azərbaycan dili və ədəbiyyatının rolu” və “Ədəbi mühitdə yeni, innovativ yanaşmalar: Yaradıcı sənayenin inkişafı kontekstində müasir yazarlıq ənənələrinə baxış” mövzularında panel müzakirələrlə davam edib. Auditoriyanın çoxsaylı sualları cavablandırılıb.

***F.HÜQUQQIZI***
***XQ***

# Tənqidçi oxucu qarşısında

**Çağdaş Azərbaycan ədəbiyyatının sayılıb-seçilən imzalarından olan tənqidçi, şair, tərcüməçi Əsəd Cahangirin bədii-elmi yaradıcılıq nümunələri həmişə maraqla qarşılanıb. Onun məqalələrində reallıqla mistika çulğalaşır, ədəbi prosesə tənqidçi baxışı əhatəli və bütöv olur.**



Azərbaycan Yazıçılar Birliyi Sumqayıt bölməsinin təşkilatçılığı ilə gənclik şəhərindəki Poeziya Evində Əsəd Cahangirlə keçirilən görüşdə bu fikirlər xüsusi vurğulanıb. Poeziya Evinin direkroru, AYB-nin Poeziya seksiyasının rəhbəri İbrahim İlyaslı, AYB Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin, AYB sədrinin müşaviri Rauf Aslanov, AYB- nin katibi, yazıçı-dramarurq, publisist Elçin Hüseynbəyli, AYB Lənkəran bölməsinin sədri Qafar Cəfərli, şair Daməd Salmanoğlu çıxışlarında Əsəd Cahangirin Azərbaycan ədəbiyyatında yeri və rolundan konkret faktlar əsasında ətraflı söhbət açıblar.

Sonra görüş tanınmış tənqidçi ilə birbaşa dialoq şəklində davam edib. Əsəd Cahangir onun görüşünə gəlmiş oxucuların çoxsaylı suallarını cavablandırıb, müasir Azərbaycan ədəbiyyatı və onun problemləri ilə bağlı məsələlərdən bəhs edib və dünya arenasına çıxarıla biləcək əsərlər üçün başlıca tələblərin nələrdən ibarət olduğunu açıqlayıb.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Ərdoğanın ümidverici Yunanıstan görüşləri

## Bu, son 65 ildə Türkiyənin dövlət başçısının Afinaya ilk səfəridir



**Dünən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Yunanıstana səfər edib. O, burada Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis ilə bir çox ikitərəfli və regional mövzuları geniş müzakirə edib.**

Liderlər görüşün sonunda mediaya birgə açıqlama veriblər. Hər iki tərəf görüşün müsbət məcrada və məhsuldar keçdiyini ifadə edib. "BMT-nin qərarları bizim üçün çox önəmlidir və Kiprlə bağlı inkişaf prosesi bu istiqamətdə aparılmalıdır. İnanıram ki, aramızda olan düşmənçilik münasibətlərinin sonuna çatmışıq", – deyə Yunanıstanın Baş naziri bildirib.

Görüşdə Türkiyə vətəndaşlarının Egey adalarına vizasız gediş-gəlişinin müzakirə edildiyini deyən Kiriakos Mitsotakis iki qonşu ölkə arasındakı münasibətlərin yeni dövrünü "sakit sularda üzən gəminin kapitanları kimi ikimiz də gözəl bir gələcək yaratmalıyıq" sözləri ilə ifadə edib.

Bildirilib ki, iki sərhədyanı ölkə yan-yana və birlikdə hərəkət etməlidir.

Öz növbəsində dəvətə görə təşəkkürünü bildirən R.T.Ərdoğan bu səfərin Türkiyədən Yunanıstana prezident səviyyəsində 65 il aradan sonra ilk ziyarət olduğunu xatırladıb.

"Münasibətlərimizdə mövcud olan müsbət dinamikanı daha da inkişaf etdirmək istəyirik. Artıq yeddi ildən sonra bu gün Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının beşinci iclasını keçirməyimiz də bu niyyətin göstəricisidir. Hesab edirəm ki, biz növbəti görüş üçün bu qədər fasilə verməyəcəyik. Təsis bəyannaməsində qeyd olunduğu kimi, bu görüşün ildə, ən azı, bir dəfə keçirilməsi hər iki ölkə üçün faydalı olar", – deyə Ərdoğan bildirib.

Türkiyə Prezidenti görüşdə iki ölkə arasında hazırda, təxminən, 5 milyard dollar olan ticarət həcmini 10 milyard dollara çatdırmaq barədə razılığa gəlindiyini qeyd edərək deyib: "Biz həm turizm, həm də mədəniyyət sahəsində əlaqələrimizi inkişaf etdirmək istəyirik. Baş nazirlə görüşlərimizdə Egey və Şərqi Aralıq dənizindəki münasibətlərimizlə bağlı fikir mübadiləsi apardıq və xarici işlər nazirlərimizdən bu məsələ ilə bağlı işlərə qətiyyətli yanaşmalarını istədik. Hazırkı problemlərimizi konstruktiv dialoq, mehriban qonşuluq və beynəlxalq hüquq çərçivəsində birgə səylərlə həll etmək səmimi arzumuzdur".

Görüşdə terrorizmlə mübarizədə əməkdaşlığın inkişafı məsələlərinin də müzakirə olunduğunu deyən Ərdoğan xüsusilə Lavrion düşərgəsinin bağlanmasını yüksək qiymətləndirdiklərini vurğulayıb.

*M.HACIXANLI*
*XQ*

# Abşeronda zəlzələ ziyansız ötüşdü

**Xəbər verildiyi kimi, dekabrın 7-də yerli vaxtla saat 08:16 Xəzər dənizində zəlzələ qeydə alınıb. Zəlzələnin episentri Siyəzən stansiyasından 60 kilometr şərqdə Xəzər dənizində olub. Yeraltı təkanlar Abşeron yarımadasında, eləcə də payaxt Bakıda hiss olunub. Dağıntı və tələfat olmayıb.**





Dünən AMEA nəzdində fəaliyyət göstərən Respublika Seysmoloji Xidmət Mərkəzində mətbuat konfransı keçirildi. Tədbirdə Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, professor Qurban Yetirmişli ölkəmizin zəlzələ zonasında yerləşdiyini və nə vaxtsa yenidən yeraltı təkanların baş verə biləcəyini söylədi: "Azərbaycanda binalar tikilərkən, onların 8 ballıq zəlzələyə davamlılığı nəzərə alınır və layihələr buna əsasən hazırlanır".

Baş direktorun sözlərinə görə, yeraltı təkanın hiss olunması 47 saniyə çəkib: "Bu, güclü zəlzələ deyil. Bəzi yerlərdə 5-6-cı mərtəbələrdə hiss olunmayıb. Zəlzələdən sonra 5 afterşok qeydə alınıb".

Q.Yetirmişli bildirdi ki, seysmik mikrorayonlaşdırma xəritəsi gündəmdədir. FHN əməkdaşları yaponiyalı mütəxəssislərlə gələn il birgə işlərə başlanılacaq. O qeyd etdi ki, bununla bağlı razılıq əldə olunub. Xəritənin tərtib olunması üzərində iş gedir. Xəritə Abşeron yarımadasını və Bakı şəhərini əhatə edəcək.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəisi Elşad Hacıyev qeyd etdi ki, zəlzələ ilə bağlı növbətçi hissələrdə dağıntı, yaxud xoşagəlməz hal qeydə alınmayıb. Zəlzələ baş verəndən dərhal sonra Bakı və digər ərazilər üzrə polis gücləndirilmiş iş rejiminə keçib. Yol polisi, post patrul xidməti və digər əməkdaşlar öz sahələrində aidiyyəti üzrə cəlb olunub. Metro, ali təhsil müəssisələri, məktəb və uşaq bağçaları nəzarətə götürülüb. Polis əməkdaşları bütün lazımi işləri görür. O, tövsiyə etdi ki, heç bir vahiməyə düşməsinlər.

Fövqəladə Hallar Nazirliyinin yanında Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini Elxan Əsədov isə dedi ki, regional mərkəzlərin əməkdaşları zəlzələdən sonra ərazilərə baxış keçirib, dağıntılara rast gəlinməyib.

Sonda Q.Yetirmişli bir daha insanları şayiələrə uymamağa səslədi: "Zəlzələnin yenidən baş verəcəyi barədə söylənilənlər şayiələrdir, bunları bəzi adamlar sosial şəbəkələrdə yayırlar. İnsanlara mənim adımdan, rəsmi olaraq çatdırın ki, heç bir təxribata, yayılan şayiələrə inanmasınlar. Gedib evlərində rahat yatsınlar. Qorxulu heç nə yoxdur".

*Rizvan FİKRƏTOĞLU,*
*Elşən AĞALAR*
*XQ*

İDMAN

# "Olimpiya gecəsi"ndə ilin yekunları

**Milli Olimpiya Komitəsinin idman yekunlarına həsr olunmuş təntənəli "Olimpiya gecəsi" mərasimi keçirilib.**



Dövlət və hökumət rəsmiləri, idman təşkilatlarının, federasiyaların, media qurumlarının rəhbərləri, Olimpiya çempionları və idman ictimaiyyətinin nümayəndələrinin iştirak etdikləri tədbirdə əvvəlcə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə 2023-cü ilin Azərbaycan idmanı üçün uğurla keçdiyini deyib. Nailiyyətlərin ildən-ilə artdığını söyləyən Çingiz Hüseynzadə bunun səbəbinin ölkə başçısı İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi və fəaliyyəti ilə bağlı olduğunu diqqətə çatdırıb. Qazanılan uğurlara görə federasiya rəhbərlərini, idmançıları və idman ictimaiyyətinin nümayəndələrini təbrik edən Ç.Hüseynzadə 2024-cü ilin ölkə idmanı üçün daha da uğurlu olacağına əmin olduğunu deyib.

Sonra Avropa Olimpiya Komitələrinin və Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralosun video formatda təbriki olub. Tədbir iştirakçılarını Azərbaycan dilində salamlayan qurum rəhbəri Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını, Birinci Avropa Oyunlarının Bakıda yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. O bildirib ki, Azərbaycanda idmana dövlət səviyyəsində göstərilən yüksək diqqət və qayğı Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasətin bir hissəsidir.

2023-cü ilin idman yekunları ilə bağlı videoçarx təqdim olunduqdan sonra müxtəlif nominasiyalar üzrə ilin qaliblərinin mükafatlandırılma mərasimi təşkil edilib. Aparılan sorğunun yekun nəticələrinə əsasən, Azərbaycan Dövlət İnformasiya Agentliyi-AZƏRTAC ilin ən aktiv yazılı mediası seçilib. "İdman TV" isə ilin ən aktiv telekanalı nominasiyası üzrə fərqlənib.

Bundan başqa, Azərbaycan Cüdo Federasiyası "Qızlara ağ yaraşır" sosial layihəsi ilə ilin ən yaradıcı, Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası ilin ən aktiv idman qurumu adına layiq görülüb. Elm və Təhsil Nazirliyi ilin ən loyal tərəfdaşı, Azərbaycan Dövlət Reklam Agentliyi ilin ən aktiv tərəfdaşı nominasiyası üzrə qalib olub. BP şirkəti ilin ən kreativ, "Toyota" isə ilin ən aktiv sponsoru olub.

İlin ən aktiv qadın idmançısı adını qadın güləşçi Mariya Stadnik, ilin ən aktiv kişi idmançısı adını isə veteran cüdoçu Rüstəm Orucov qazanıb.

Təntənəli yubiley mərasimi konsert proqramı ilə davam edib.

*L.QURBANOVA*
*XQ*

# "Vüqar Həşimov Memorialı" start götürür

**Bu gün Qəbələdə dünyanın məşhur qrosmeysterlərindən biri, görkəmli şahmatçımız Vüqar Həşimovun xatirəsinə həsr olunmuş "Vüqar Həşimov Memorialı" start götürür.**



Ölkəmizdə sayca 9-cu dəfə keçirilən turnirin iştirakçıları dünən – yarış ərəfəsində Bakıda II Fəxri xiyabanda Vüqar Həşimovun məzarını ziyarət ediblər.

Azərbaycan Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədov qrosmeysterlə bağlı xatirələrini yada salıb və onun qazandığı uğurlardan söz açıb. Vüqar Həşimovun dünya şahmatında əldə etdiyi nailiyyətlərin hər zaman qürurla xatırlanacağını bildirib:

– Hər bir azərbaycanlı Vüqar Həşimovla fəxr etməlidir. Gənc şahmatçılar üçün Vüqar Həşimovun oyunları bu gün bir dərslikdir. Nə qədər ki şahmat var, Vüqar da həmişə xatirələrdə qalacaq.

**Mahir Məmmədov turnirdə 4 ölkədən tanınmış şahmatçıların iştirak etdiklərini vurqulayıb. O qeyd edib ki, yarışa ilk dəfə olaraq gənc şahmatçımız Aydın Süleymanlı da dəvət edilib. Turnirin rapid və blits növündə vaxt nəzarəti ilə keçiriləcəyini bildirən qurum rəsmisi maraqlı mübarizəyə şahidlik edəcəyimizi deyib:**

– İnanırıq ki, turnir çox yaxşı keçəcək və gözəl təşkilatçılıqla yadda qalacaq.

M.Məmmədov Azərbaycan şahmatçılarının bu il əldə etdikləri nailiyyətlərlə bağlı da fikirlərini bölüşüb. O qeyd edib ki, 8-12 yaşlı şahmatçılarımız dünya birinciliyində 4-ü qızıl olmaqla, 7 medal qazanıb. Ayan Allahverdiyeva 18 yaşadək qızlar arasında dünya birinciliyinin qalibi olub. Qadın şahmatçılarımız komandalar arasında Avropa çempionatında sonadək qızıl medal uğrunda mübarizə aparsalar da, sonda fürsəti əldən veriblər. Gövhər Beydullayeva və Məhəmməd Muradlının İtaliyanın Sardinya adasında 20 yaşa qədər qız və oğlan şahmatçılar arasında rapid və blits üzrə dünya çempionatının qalibi olduqlarını vurğulayan M.Məmmədov uğurlu nəticələrimizin 2024-cü ildə də davam edəcəyinə əmin olduğunu bildirib.

Dünya şöhrətli qrosmeysterimiz Şəhriyar Məmmədyarov "Vüqar Həşimov Memorialı"nın Azərbaycanda şahmatın inkişafına töhfə verdiyini bildirib. O Vüqar Həşimov Şahmat Akademiyasında təhsil alanlar şahmatçıların da gələcəkdə bu turnirin iştirakçılarına çevriləcəyinə inandığını vurğulayıb.

İsrail şahmatçı Boris Gelfand Vüqar Həşimovun dünya şahmatında özünəməxsus yeri olduğunu söyləyib. Yarışda iştirakla bağlı Azərbaycandan gələn təklifi məmnunluqla qəbul etdiyini deyən tanınmış şahmatçı onları maraqlı oyunların gözlədiyini deyib.

Qeyd edək ki, bu gün Qəbələdəki Heydər Əliyev Konqres Mərkəzində memorialın açılış mərasimi keçiriləcək. Açılışdan sonra rapid üzrə ilk turun oyunları baş keçiriləcək. Yarışın ilk üç günü rapid, son gündə isə blits üzrə oyunlar olacaq. Bütün partiyalar turnirin rəsmi saytı ilə yayımlanacaq. Partiyaları Murad Həşimov və Kənan Qarayev şərh edəcəklər. Vüqar Həşimov Memorialının baş hakimi beynəlxalq qrossmeyster İlahə Qədimovadır.

Vüqar Həşimov Şahmat Fondu, Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyanın təşkilatçılığı ilə keçirilən superturnirdə ümumilikdə 10 şahmatçı – Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Nicat Abasov, Rauf Məmmədov, Aydın Süleymanlı, Santoş Vidit, Arjun Eriqaisi (Hindistan), Riçard Rapport (Rumıniya), Yorden van Forest (Niderland) və Boris Geifand (İsrail) iştirak edir.

Xatırladaq ki, "Vüqar Həşimov Memorialı" ilk dəfə 2014-cü ildə Şəmkirdə keçirilib. Yarışda dəfələrlə dünya çempionu Maqnus Karlsen dörd (2014-cü, 2015-ci, 2018-ci, 2019-cu il) dəfə qalib adını qazanıb. Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov 2016-cı və 2017-ci illərdə, ABŞ təmsilçisi Fabiano Karuana 2021-ci ildə, özbəkistanlı Nodirbek Abdusattorov isə 2022-ci ildə birinci yeri tutublar.

*Q.LEYLA*
*XQ*

SOSİAL GÜNDƏM

## Qarabağ sakinlərinə peşə hazırlığı




Dövlət Məşğulluq Agentliyi Laçın, Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl şəhərləri, Laçının Zabux və Sus, Füzulinin Dövlətyarlı, Cəbrayılın Horovlu və Şükürbəyli, Qubadlının Mahruzlu və Zilanlı, Ağdərənin Talış və Suqovuşan, Ağdamın Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin işsiz sakinlərini peşə hazırlığı kurslarına dəvət edir.

Sakinlərə edilən müraciətdə bildirilir ki, peşə kurslarına 2023–2024-cü illərdə həmin ərazilərdə məskunlaşmış, habelə məskunlaşması nəzərdə tutulan işsiz və ya işaxtaran şəxslər müraciət edə bilər. Kurslarda iştirak etməklə əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnmək və işlə təmin olunmaq mümkündür.

Peşə hazırlığı kurslarına daxil olmaq üçün DOST mərkəzlərinə və məşğulluq agentliyinin filiallarına müraciət etmək lazımdır. Yaxud nazirliyin elektron saytında "Qarabağ və Şərqi Zəngəzurda peşə hazırlığı" bölməsindəki linkə daxil olaraq müvafiq formanı doldurmaqla qeydiyyatdan keçmək mümkündür.

Kursların müddəti 6 aya qədərdir, iştirak ödənişsizdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, Dövlət Məşğulluq Agentliyi işğaldan azad edilmiş digər ərazilərin sakinləri üçün də peşə hazırlığı kursları təşkil ediləcək.

## 300-dək işsizə kiçik biznes imkanı




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mərkəzi Bank və Banklar Assosiasiyasının birgə icra etdiyi "Özünüməşğulluğa dəstək–2023" layihəsi üzrə işsiz şəxslərə aktivlərin verilməsi prosesi davam edir.

Layihə çərçivəsində artıq bu il 300-ə yaxın işsiz şəxsə aktivlər təqdim olunaraq kiçik biznesləri yaradılıb. Onların əksər hissəsi şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, əlilliyi olan şəxslər və digər həssas qruplardan olanlardır.

Qeyd edək ki, özünüməşğulluq proqramının genişləndirilməsində önəmli rol oynayan "Özünüməşğulluğa dəstək–2023" layihəsinə 23 bank qoşulub. Layihə üzrə 2023-cü ildə 300 işsiz şəxsin kiçik bizneslərinin yaradılması nəzərdə tutulub.

## 11 ayda 45,5 min əlillik təyinatı

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar–noyabr aylarında 45 min 500 nəfərə əlillik təyin edilib.




Onlardan 22 min 600 nəfərinə ilkin, 22 min 900 şəxsə isə təkrar əlillik təyinatı aparılıb. Əlillik təyinatından sonra e-sistem üzərindən həmin şəxslərə əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin olunub. Eyni zamanda, qeyd olunan dövrdə agentliyin reabilitasiya müəssisələrində 78 min 900 şəxsə reabilitasiya xidmətləri göstərilib.

*Z.HÜSEYNOVA*
*XQ*

"DƏZGAHQAYIRMA ZAVODU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ SƏHMDARLARININ NƏZƏRİNƏ!

14 dekabr 2023-cü il saat 14.00-da "DƏZGAHQAYIRMA ZAVODU" ASC səhmdarlarının növbədənkənar yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Səhmdar cəmiyyətin idarəetmə orqanlarının maliyyə - təsərrüfat fəaliyyəti barədə yekun hesabatın müzakirəsi.
2. Hesablama komissiyasının yaradılması və onun tərkibinin müəyyən edilməsi.
3. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə iştirakı vacibdir.

Əlaqə telefonu – +994 50 228 38 24, +994 50 228 22 18, +994 55 390 01 02.

Ünvan – Şirvan şəhəri, Cənub sənaye Qovşağı "DƏZGAHQAYIRMA ZAVODU" ASC-nin inzibati binası.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 268 (30384) 8 dekabr 2023-cü il, cümə


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


İlin ən yaxşı filmi

## "Çiçəkli ayın qatilləri"



**ABŞ Milli Kino Tənqidçiləri Şurası tərəfindən keçirilən müsabiqədə "Çiçəkli ayın qatilləri" ilin ən yaxşı filmi seçilib. BBC yazır ki, bu ekran əsərinin rejissoru Martin Scorses isə "Ən yaxşı rejissor" mükafatının sahibi olub.**

Müsabiqədə Paul Giamatti "Ən yaxşı aktyor", Lili Qladstoun "Ən yaxşı aktrisa" nominasiyaları üzrə mükafata layiq görülüb.

**XQ**

İdman xəbərləri

## AFFA təmsilçisi "Barselona"nın oyununa təyinat alıb

**AFFA-nın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, qurumun İcraiyyə Komitəsinin üzvü Könül Mehtiyeva beynəlxalq oyuna təyinat alıb.**




Belçikada Çempionlar Liqasının H qrupunda "Antverpen" və İspaniyanın "Barselona" komandaları arasında keçiriləcək matçın UEFA nümayəndəsi Könül Mehtiyeva olacaq.

Qarşılaşma dekabrın 13-də Dyörne şəhərində oynanılacaq.

## U-18 voleybol komandamız regional yarışda



**Voleybol üzrə Azərbaycan millisi Gürcüstanın Telavi şəhərində keçirilən Şərqi Avropa Voleybol Zonal Assosiasiyası (EEVZA) çempionatında növbəti oyununu keçirib.**

18 yaşadək voleybolçu oğlanlardan ibarət yığmamız üçüncü matçında latviyalı həmyaşıdları ilə qarşılaşıb. Cəlil Baxtiozinin baş məşqçi olduğu kollektiv qarşılaşmada rəqibə 0:3 hesabı ilə uduzub. Bundan əvvəl voleybolçularımız eyni hesabla Polşa və Ukrayna millilərinə də məğlub olmuşdular.

Qeyd edək ki, komandamız bu gün Estoniya, dekabrın 9-da isə Gürcüstanla mübarizə aparacaq. Turnirin qalibi AVRO-2024-ün final mərhələsinə vəsiqə qazanacaq.

## Gimnastlar "Rektor kuboku" yarışında

**Azərbaycan Gimnastika Federasiyası və Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının birgə təşkilatçılığı ilə Milli Gimnastika Arenasının yardımçı zalında akademiya tələbələri arasında idman gimnastikası üzrə "Rektor kuboku" yarışı keçirilib.**



Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş turnirin açılış mərasimində əvvəlcə Ulu öndərin idman sahəsinə verdiyi töhfəni əks etdirən videoçarx nümayiş etdirilib. ADBTİA-nın rektoru Fuad Hacıyev Prezident İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğı nəticəsində ölkəmizdə bir çox yarışların uğurla təşkil olunduğunu bildirib.

Yarışda 8 komandanın tərkibində akademiyanın bakalavriat səviyyəsinin I tədris ilində təhsil alan 130-dək tələbə qüvvəsini sınayıb. Komanda yarışında "Zəngilan" 1-ci, "Füzuli" 2-ci, "Şuşa" isə 3-cü pillədə qərarlaşıb. Qrup çıxışında "Şuşa" 1-ci, "Füzuli" 2-ci, "Zəngilan" komandası isə 3-cü olub. Fərdi çoxnövçülükdə "Zəngilan" komandasının təmsilçisi Rəşad Məmmədov qızıl medal qazanıb. "Füzuli" komandasını təmsil edən tələbələr Rahib Məmmədov gümüş, Vüsal Səmədov isə bürünc medala sahib çıxıb.

Sonda yarışda fərqlənmiş gimnastlara mükafatlar təqdim edilib.

*Leyla SABİRQIZI*
**XQ**

## "Vaşinqton post" qiyamı

**ABŞ-nin ən böyük qəzeti olan "Vaşinqton post"un 750-dən çox əməkdaşı dekabrın 8-də media şirkəti tarixində 50 ilin ən böyük etiraz aksiyasında iştirak edəcək. Bu barədə qəzet məlumat yayıb.**

Bildirilib ki, nəşrin əməkdaşları səhər saatlarında işlərini tərk edəcək və 24 saat ərzində çalışmayacaqlar. Bundan başqa, paytaxt Vaşinqtonun mərkəzində yerləşən ofisin qarşısında bir günlük piket və mitinq keçiriləcək.



Əməkdaşlar həmrəylik əlaməti olaraq nəşrin oxucularından bir gün ərzində qəzeti oxumaqdan və nəşrin saytına daxil olmaqdan imtina etməyi xahiş ediblər.

Həmkarlar ittifaqının üzvləri bildiriblər ki, 18 aydır işçilərin müqavilələrini uzatmayan media şirkəti ilə danışıqlar dalana dirəndiyi üçün bu aksiyada iştirak edəcəklər.

**XQ**

Hadisə

## Horadizdə mina qəzası



**Dekabrın 7-də saat 10 radələrində Füzuli rayonu Horadiz kəndi ərazisində təsərrüfat sahəsində əkin işləri aparan traktorun minaya düşməsi ilə bağlı polisə məlumat daxil olub. Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti məlumat yayıb.**

Bildirilib ki, traktorun sürücüsü, 1994-cü il təvəllüdlü Zamin Həsənli xəsarət alıb. O, polis əməkdaşlarının köməyi ilə ərazidən çıxarılaraq xəstəxanaya təxliyə edilib. Faktla bağlı araşdırma aparılır.

**XQ**

Hava

## Abşeron yağmursuz, bölgələr yağıntılı olacaq

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, dekabrın 8-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gündüz yağmursuz keçəcəyi gözlənilir.***



Lakin səhər və axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Gecə 6-9°, gündüz 9-12° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz yağıntıda fasilə olacaq. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8°, gündüz 8-13° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacaq.

*Q. QASIMOV*
**XQ**

Ekologiya

## Torpağa düşməsin bircə zibil də

**Sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması, ətraf mühitin mühafizəsinin daha da gücləndirilməsi məqsədilə Balakən Rayon Polis Şöbəsinin və 7 saylı regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları tərəfindən birgə nəzarət tədbirləri keçirilib.**



Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan mətbuata verilən məlumata görə, keçirilən tədbirlər zamanı rayonun Tülü kəndində vətəndaşa məxsus pay torpaq sahəsində sənaye və məişət tullantılarının qalaqlanması faktı aşkar olunub.

Aşkar olunmuş faktla bağlı torpaq sahibi olan kənd sakini barəsində İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsi ilə protokol tərtib edilib.

**XQ**

Sağlamlıq

## Əriyin həm sulusu, həm qurusu

**Əriyin sulusu kimi, qurusu da olduqca faydalıdır. Xalq təbabətində əsrlərdir ki, ərik qurusundan müxtəlif müalicəvi təsirinə görə geniş istifadə olunur. Ərik qurusu təzə ərikdən faydalı tərkibinə görə heç də geri qalmır. Onda B, C, PP vitaminləri, kalium, maqnezium, marqans və 12 aminturşusu var.**



Mütəxəssislər quru əriyin orqanizmə faydaları ilə bağlı bildirirlər:

1. Ərik qurusunun sidikqovucu təsiri var. Bədəndəki artıq mayeni çıxarır, ödəmi götürür, böyrək və sidik yollarından qumu, daşı, çöküntünü yuyub təmizləyir.
2. Piy və yağ yandırıcı xassəsi var. Artıq çəkisi olanlar metabolizmi sürətləndirmək üçün gündə 5–7 ədəd ərik qurusu yeməlidir.
3. Qanduruldücudur. Qanın axıcılığını artırır, tromba qarşıdır. Ona görə müasir tibbdə varikoz və ürək damar xəstələrinə quru ərik tövsiyə edilir.
4. Həzmi yaxşılaşdırır, qəbizliyə qarşı xeyirlidir.
5. Endokrin hormonal sistemi tənzimləyir.
6. Yaddaşı yaxşılaşdırır, diqqəti artırır.
7. Görmə zəifliyində faydalı olduğu təsdiqlənib.
8. Yüksək təzyiqi salır, xəstələrdə damar spazmını aradan qaldırır.
9. Miqren və baş ağrılarına qarşı faydalıdır.

Mütəxəssislər quru əriyi yuyub gündə 100 qram yeməyi tövsiyə edirlər.

*Z.HÜSEYNLİ*
**XQ**

## ALLAH RƏHMƏT ELƏSİN

Məleykə Abbaszadə və Rəna Mustafayeva

**ZÖHRƏ HÜSEYNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Mikayıl İsmayılov, fəlsəfə elmləri doktoru, professor Əlisa Əhmədov, Pərviz Heydərov və Qüdrət Piriyev tanınmış şair

**MƏTLƏB MƏMMƏDOĞLUNUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva və kafedranın kollektivi iş yoldaşları Zöhrə Məlikovaya anası

**ZEMFİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3213
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00